Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 123 (8146) ŞƏNBƏ, 8 iyun 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# 260 milyard dollar sərmayə, 46,7 milyard valyuta ehtiyatı



“Dünya da, bölgə də dəyişib. Dünyada, bölgədə yeni təhlükə mənbələri üzə çıxır, yeni çağırışlar meydana gəlir. Əlbəttə, biz həmişə çalışırıq və çalışmalıyıq ki, ölkəmizi mümkün olan risklərdən qoruya bilək. Son illərin təcrübəsi onu göstərir ki, biz buna müvəffəq ola bilmişik... Bu gün Azərbaycan müstəqillik yolunda inamla irəliləyir və ölkə qarşısında duran problemlər həll edilir”.

## İlham Əliyevin yeni inkişaf konsepsiyası əsasında Azərbaycanın möhkəm təməllərə əsaslanan güclü sosial-iqtisadi bazası formalaşıb

Respublika günü münasibətilə keçirilən rəsmi qəbulda son 16 ildə Azərbaycanın əldə etdiyi uğurları dəyərləndirən Prezident İlham Əliyev bu nailiyyətlərlə kifayətlənməməyi və dayanıqlı inkişafı təmin etmək üçün fəal iş görülməsinin vacibliyini söylədi. Ən önəmlisi də odur ki, ölkə qarşısında duran problemlərin həlli əsas məsələ olmalıdır.

Prezident tərəfindən istənilən problemin aradan qaldırılması istiqamətində müvafiq tapşırıqlar verilir. Reallıq da budur ki, son 16 ildə qarşıya qoyulan bütün planların həyata keçirilməsi üçün iqtisadiyyatını uğurla inkişaf etdirən, iqtisadi cəhətdən tamamilə asılılıqdan qurtulan, regionda irimiqyaslı enerji, nəqliyyat və infrastruktur layihələrinin təşəbbüskarı və fəal iştirakçısı olan, dünya kosmos ailəsinin üzvünə çevrilən Azərbaycan tarixinin ən qüdrətli dövrünü yaşayır.

Dövlət başçısının innovasiyayönümlü istehsala əsaslanan sosial-iqtisadi siyasəti, apardığı islahatlar Azərbaycan iqtisadiyyatını keyfiyyətcə yeni, daha yüksək mərhələyə çıxarıb və respublikamız dünyanın iqtisadi cəhətdən dinamik inkişaf edən ölkəsi imicini qazanıb. İqtisadi göstəricilərə nəzər yetirsək, son 16 ilin uğurlarını aydın şəkildə görə bilərik.

Bu müddət ərzində ümumi daxili məhsul **3,2** dəfə, büdcə gəlirləri **13,5** dəfə, strateji valyuta ehtiyatları **27** dəfə, xarici ticarət dövriyyəsi **4,6** dəfə, ixracın həcmi **6** dəfə artıb. 2003-cü ildə Azərbaycanın strateji valyuta ehtiyatları **1,8** milyard dollar idisə, bu gün həmin rəqəm **46,7** milyard dollardır. İqtisadiyyatın **3** dəfə artması rekord göstəricidir. Sosial sahəyə nəzər yetirsək görərik ki, bu müddət ərzində əməkhaqqı və pensiya **10** dəfəyə yaxın artıb. 16 ildə Azərbaycan iqtisadiyyatına **260** milyard dollar sərmayə yatırılıb.

Hazırda respublikamızda qeyri-neft sektorunun inkişafı iqtisadi artımın başlıca mənbəyi kimi diqqət mərkəzində saxlanılır. Milli iqtisadiyyatın tərəqqisinə və ixracın şaxələndirilməsinə yönələn tədbirlər qeyri-neft sektorunda iqtisadi artıma müsbət təsir edir. Həmin tədbirlər sırasında son illər investisiya siyasətinin diqqət mərkəzində saxlanılması mühüm önəm daşıyır. Təkcə bu ilin birinci rübündə ölkə iqtisadiyyatına yatırılan **2,8** milyard dollarlıq sərmayənin **2** milyardının qeyri-neft sektorunun payına düşməsi bunu bir daha təsdiqləyən reallıqdır. Ümumilikdə isə bu il ölkədə kənd təsərrüfatı **3,6** faiz, qeyri-neft sektorunda sənaye istehsalı **15,6** faiz artıb, sənaye istehsalı **4,4** faiz çoxalıb.

Ardı 3-cü səh.

# DOST-ların sayı artacaq



## İlham ƏLİYEV: “DOST mərkəzləri müasir Azərbaycanın simasını əks etdirir”

2019-cu ilin əhalinin sosial müdafiəsi baxımından fərqli dövr olacağını bildirən Prezident İlham Əliyev real islahatlarla bu əminliyin əməli müstəvidə reallaşmasını təmin edir. Cari ilin elə ilk aylarından dövlət başçısının ölkədə rifah halının yüksəlməsi üçün atdığı addımlar, konkret desək, 3 milyon insanın, onların ailələrinin həyatını dəyişən sərəncamları bunun əyani təsdiqidir. Sosial güvənliyi artıran bu qərarlar eyni zamanda ölkəmizin dövlət sosial xidmətləri sahəsində də mühüm yeniliklər edir. Və belə innovativ tədbirlərdən biri də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin (DOST Agentliyi) yaradılması və ilk DOST mərkəzinin istifadəyə verilməsidir.

Prezident İlham Əliyevin 9 avqust 2018-ci il tarixli fərmanı ilə reallaşan və bununla vətəndaş məmnuniyyətinə doğru keyfiyyətcə yeni mərhələ açan DOST layihəsi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsüdür. Bu layihə dövlət sosial xidmətlərinin innovativ təqdimat üzərindən, vahid platformadan, bir pəncərədən, tam şəffaf və operativ, vətəndaş rahatlığı və sadə prosedurlar əsasında göstərilməsinə xidmət edir.

Cari ilin ötən dövründə Azərbaycanda minimum əməkhaqqının və pensiyanın 40 faizədək, sosial müavinət və təqaüdlərin orta hesabla 100, məcburi köçkünlərin müavinətlərinin 50 faiz, eləcə də tələbələrin təqaüdlərinin əhəmiyyətli dərəcədə artırılmasını, 800 mindən çox insanın problemli kreditlərinin həllini çox ciddi tədbirlər kimi hətta siyasi mövqeyinə görə bundan məmnun olmayanlar da etiraf edirlər. Amma bunlar da hələ hamısı deyil. Prezident İlham Əliyevin tapşırığına əsasən, şəhid ailələri və müharibə əlilləri üçün mənzillə təminat proqramı güclənib, ötən il onlara nəzərdə tutulandan 3 dəfə çox olmaqla 626, ümumilikdə bu vaxta qədər 6654 mənzil verilib. 2018-ci ildə, həmçinin müharibə əlillərinə 265, bu ilin ötən dövründə 50 (indiyədək cəmi 6200) avtomobil hədiyyə edilib. Cari il isə bu qəbildən olan daha 800 nəfərə mənzil, 600 nəfərə avtomobil verilməsi nəzərdə tutulur.

İlk DOST mərkəzinin açılışında Prezident İlham Əliyev sosial sahənin Azərbaycan dövləti üçün prioritet olduğunu, bu sahəyə çox böyük diqqət göstərildiyini, aparılan islahatların artıq real nəticələr verdiyini qeyd edərək eyniadlı agentliyin yaradılmasının həmin istiqamətdə çox önəmli islahat olduğunu vurğulamış və növbəti illərdə agentliyin fəaliyyətinin genişləndirilməsinin vətəndaşlar tərəfindən yüksək qiymətləndiriləcəyinə əminliyini bildirmişdir: “Bizim siyasətimiz, demək olar ki, DOST mərkəzlərində öz əksini tapır - islahat, innovasiya, korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə, yeni texnologiyalar, gənclərin bu işlərə cəlb olunması, könüllülərin fəaliyyəti. Yəni bu mərkəzlər müasir Azərbaycanın simasını əks etdirir və ölkəmiz məhz bu yolla inkişaf etməlidir.

Ardı 4-cü səh.

## Böyük Britaniya və Şimali İrlandiyanın Kraliçası ülyahəzrət II Elizabetə

Ülyahəzrət!

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının milli bayramı - Təvəllüd Gününüz münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirməkdən məmnunluq duyuram.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Birləşmiş Krallığın dost xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 iyun 2019-cu il*

## “Tarixi şəhərlərdə kütləvi turizm” mövzusunda beynəlxalq memarlıq forumunun iştirakçılarına

Hörmətli forum iştirakçıları!

Sizi ölkəmizin paytaxtında “Tarixi şəhərlərdə kütləvi turizm” mövzusunda beynəlxalq memarlıq forumunun öz işinə başlaması münasibətilə səmimi təbrik edir, hər birinizə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

Biz ilk mötəbər forumunuzun unikal memarlıq abidələri və eyni zamanda, modern üslublu binalarla zəngin, təkrarsız görkəmə malik Bakı şəhərində təşkilini yüksək qiymətləndiririk. Bu, şəhərsalma və memarlığı özünəməxsus inkişaf yolu keçmiş çoxəsrlik Azərbaycan mədəniyyətinə ehtiramın təzahürüdür. Turizmin müasir problemləri, o cümlədən dövrümüzün reallıqları ilə yaxından səsləşən kütləvi turizm fenomeni ətrafında müzakirələrin məhz belə tarixi məkanda aparılması forumunuza aktuallıq qazandırır.

Artıq ayrıca sənaye sahəsinə çevrilmiş olan turizm sektoru hazırda dünya ölkələrinin iqtisadiyyatında əhəmiyyətli rol oynamaqdadır. Azərbaycanı onun təbii sərvətləri və rəngarəng coğrafi landşaftı, zəngin mədəni irsi və yenilənmiş infrastrukturu turizm baxımından cəlbedici edir. Bu mədəni və ekoloji turizm potensialı nəzərə alınaraq respublikamızda turizm sektorunun inkişafı ən prioritet hədəflərdən biri elan edilmişdir. Məqsəd təbiət abidələrimizi və xalqımızın böyük keçmişinin izini yaşadan qədim mədəniyyət yadigarlarını geniş miqyasda tanıtmaqdır.

Vurğulamaq istərdim ki, müstəqillik illərində memarlıq və şəhərsalma sahəsində sosial inkişafın əsası kimi qiymətləndirilən mühüm işlər görmüşük. Yaşayış yerlərinin mühəndislik və nəqliyyat infrastrukturu modernləşdirilmiş, yüksək səviyyəli hotellər və neçə-neçə sosial obyekt inşa edilmişdir. Bu işlərin uğurla gerçəkləşdirilməsi memarlarımızın fəaliyyəti ilə sıx əlaqəlidir. Onlar ölkəmizdə mədəni özünəməxsusluğun qorunub saxlanması və əcdadlardan qalma mirasın gələcək nəsillərə layiqli şəkildə çatdırılması naminə var qüvvələri ilə çalışırlar. Son illər memarlarımızın xüsusən tarixi şəhərlər və kütləvi turizm arasında ahəngdarlığın təmin edilməsi üçün Beynəlxalq Memarlar İttifaqı ilə münasibətləri zəminində göstərdiyi təşəbbüs və atdığı addımlar təqdirəlayiqdir.

Ümidvaram ki, forum çərçivəsində memarların tarixi yerlərdə kütləvi turizmin idarə olunmasında roluna dair aparacağınız diskussiya və fikir mübadilələri, irəli sürəcəyiniz tövsiyə və təkliflər turizmin aktual məsələlərinin həllinə öz töhfəsini verəcək, həmçinin əməkdaşlığınızın daha da dərinləşməsi və yeni istiqamətlərinin müəyyənləşməsinə xidmət edəcəkdir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 iyun 2019-cu il*

## Fransadan erməni faşizminə zərbə

### Serji-Pontuaz inzibati məhkəməsi Fransanın Arnuvill şəhəri ilə Dağlıq Qarabağdakı qondarma rejim arasında imzalanan “xartiya”nı ləğv etməklə Ermənistanın işğalı legitimləşdirmək cəhdinin qarşısını aldı

Xəbər verdiyimiz kimi, Fransanın Serji-Pontuaz inzibati məhkəməsi bu ölkənin Arnuvill şəhəri (Val Duaz departamenti, Parisin ətrafı) ilə Azərbaycanın işğal altında olan Xocavənd rayonunun inzibati bölgələrindən biri arasında imzalanmış “Dostluq haqqında xartiya”nı ləğv edib. Məhkəmə 2018-ci il oktyabrın 22-də imzalanmış sənədin qeyri-qanuni, heç bir hüquqi qüvvəsi olmayan və Fransanın beynəlxalq öhdəliklərinə zidd olması barədə qərar çıxarıb.

Xatırladaq ki, ötən ilin sentyabr ayında Fransanın Alforvil, oktyabr ayında isə Valas, Sent-Etyen və Arnuvill şəhərlərinin bələdiyyə başçıları Azərbaycanın işğal olunmuş ərazilərinə səfər etmişdilər. Bu səfərlərin həyata keçirilməsi ilk növbədə beynəlxalq hüququn norma və prinsiplərinin və Azərbaycan qanunlarının kobud şəkildə pozulması demək idi. Çünki işğal edilmiş Dağlıq Qarabağ və ətraf rayonlar Azərbaycanın beynəlxalq səviyyədə tanınmış torpaqlarıdır. Ona görə bu ərazilərə səfər edərək separatçı rejim nümayəndələri ilə görüşən fransız merlər beynəlxalq hüququn normalarını kobud şəkildə tapdalamış, Azərbaycan-Fransa siyasi münasibətlərinə zidd olan hərəkətlərə yol vermişdilər.

Həmin vaxt Azərbaycan Xarici İşlər Nazirliyinin bununla bağlı açıqlamasında bildirilirdi ki, yerli özünüidarəetmə orqanlarının bu kimi təxribatçı əməlləri Fransa və Azərbaycan arasında imzalanmış sazişlərin dili və ruhu ilə, eləcə də Fransanın milli qanunvericiliyi ilə ziddiyyət təşkil edir.

Ardı 7-ci səh.

## Sosial infrastruktur sarıdan regionlarımız şəhərlərdən geri qalmır



*Azərbaycanda sosial-iqtisadi inkişafın davamlılığının təmin olunmasında regionların sosial-iqtisadi inkişafı üzrə qəbul edilən dövlət proqramlarının müstəsna əhəmiyyəti var. 2004-cü ildən icra olunan həmin proqramlar regionlarda şəhər, qəsəbə və kəndlərin simasını köklü şəkildə dəyişmiş, bölgələrin sosial-iqtisadi inkişaf potensialının artmasına, biznes və investisiya mühitinin, infrastruktur təminatının yaxşılaşmasına, həmçinin əhalinin rifahının yüksəlməsinə səbəb olmuşdur.*

Dövlət proqramlarının icrası həmçinin qeyri-neft sektorunun və regionların tarazlı inkişafını təmin etmiş, bölgələrin sosial infrastrukturunu yaxşılaşdırmış, yeni iş yerlərinin və müəssisələrin yaradılmasına, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə təkan vermişdir.

Prezident İlham Əliyev mayın 29-da Bakı Sərgi Mərkəzində XXVI Beynəlxalq “Xəzər Neft və Qaz - 2019” sərgisinin açılışındakı nitqində ölkədə, o cümlədən regionlarda sosial məsələlərin həlli və infrastrukturun inkişafı barədə demişdir: “Biz son illər ərzində əsas infrastruktur layihələrimizi icra etdik və bu istiqamətdə işlər davam etdirilir. Həm yol tikintisi, həm qazlaşdırma, həm də elektrik enerjisi ilə bağlı olan məsələlər Azərbaycanda uğurla icra edilir. Qazlaşdırma 95 faizə çatıb... Biz neftdən əldə edilən gəlirləri qeyri-neft sektorunun inkişafına, insan kapitalına qoymağa başlamışıq. 3 mindən çox məktəb, 600-dən çox tibb ocağının tikilməsi, yenilən infrastruktur, sosial layihələrin, vətəndaşların sosial problemlərinin həlli - bütün bunların təməlində bizim uğurlu neft siyasətimiz dayanır”.

Dövlət proqramlarında bölgələrdə sosial infrastruktur layihələrinin həyata keçirilməsinə xüsusi önəm verilir. Bunun sayəsində son 15 ildə 14 min kilometrdən çox respublika və yerli əhəmiyyətli yolda əsaslı təmir-tikinti işləri aparılmış, 436 tunel və körpü salınmış və ya əsaslı təmir olunmuş, rayon mərkəzlərinin su və kanalizasiya sistemləri yenidən qurulmuş, yaşayış məntəqələri qazlaşdırılmışdır.

Ardı 3-cü səh.

# "Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12, maddə 2575) 2-ci hissəsinə "Talassemiya Mərkəzi" sözlərindən sonra "B.Ə.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutu, K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutu, Akademik C.M.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutu, V.Y. Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu, Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu, Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu, Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutu, Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutu, M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 iyun 2019-cu il*

# Z.Ə.Həsənovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin döyüş qabiliyyətinin artırılmasında xidmətlərinə görə Zakir Əsgər oğlu Həsənov "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 iyun 2019-cu il*

# Bakıda "Tarixi şəhərlərdə kütləvi turizm" mövzusunda beynəlxalq memarlıq forumu işə başlayıb

İyunun 7-də Heydər Əliyev Mərkəzində "Tarixi şəhərlərdə kütləvi turizm" mövzusunda beynəlxalq memarlıq forumu öz işinə başlayıb.






AZƏRTAC xəbər verir ki, forum Mədəniyyət Nazirliyi və Azərbaycan Memarlar İttifaqının dəstəyi, Beynəlxalq Memarlar İttifaqının (BMİ) iştirakı ilə reallaşıb.

Əvvəlcə tədbir iştirakçıları mərkəzin foyesində təşkil edilmiş sərgi ilə tanış olublar.

Dövlət himni səsləndiriləndən sonra Azərbaycan Respublikası Prezidentinin iqtisadi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Əsədov Prezident İlham Əliyevin forum iştirakçılarına təbrik məktubunu oxuyub *(Məktubun mətni qəzetin bugünkü nömrəsində dərc olunur)*.

Tədbiri Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin sədri, əməkdar memar Elbay Qasımzadə açaraq rəhbərlik etdiyi təşkilatın Beynəlxalq Memarlar İttifaqının işində fəal iştirak etdiyini, Bakıda memarlıq sahəsində beynəlxalq əhəmiyyətli tədbirlər, müsabiqə və festivallar keçirdiyini, mütəmadi olaraq cəmiyyətdə memarların yerinin və rolunun gücləndirilməsi ilə məşğul olduğunu qeyd edib.

"Bizi tanıyırlar, bizə inamla yanaşırlar və hörmət edirlər. Bizim digər sahələrdə olduğu kimi, memarlıq sahəsində də əldə etdiyimiz nailiyyətlər bütün dünyaya göstərir ki, Azərbaycan inkişaf edir. Forumda üç gün ərzində keçiriləcək müzakirələrin nəticələrindən dünyanın hər bir guşəsində, o cümlədən tarixi şəhərlərində istifadə olunacaq. Turizm nəinki tarixi irsə ziyan vurmayacaq, hətta tarixi irs turizmdən faydalanacaq. Bu günlər ərzində xarici qonaqlar xalqımızın mədəni irsi ilə tanış olacaq, müstəqil Azərbaycanın son illərdə əldə etdiyi nailiyyətlər, xalqımızın qonaqpərvərliyi ilə tanış olacaqlar. Forum zamanı keçiriləcək sessiyalarda tarixi irsin istifadəsi və mühafizəsi, turizmin iqtisadiyyata, istehlakçıların vərdişlərinə, şəhər infrastrukturuna təsiri müzakirə olunacaq, tarixi şəhərlərdə kütləvi turizmə nəzarət edilməsi məsələləri araşdırılacaq", - deyə Elbay Qasımzadə vurğulayıb.

Qeyd edilib ki, forumun keçirilməsi ötən il martın 29-da Prezident İlham Əliyevin BMİ-nin ali rəhbərliyi ilə görüşü zamanı qərara alınıb. Forumun əsas məqsədi turizmin sürətli inkişaf istiqamətlərini öyrənmək, mədəni irsin qorunması üçün mövcud və potensial ictimai siyasəti təhlil etmək, bu günün memarlığını sabahın mirası olaraq nəzərdən keçirmək, UNESCO-nun dünya irsinin statusu üçün müasir memarlıq siyahısını hazırlamaq, davamlı turizmə dair müvafiq qaydaları, kütləvi turizmin təsir etdiyi tarixi şəhərlərin şəbəkəsini yaratmaqdır.

Beynəlxalq Memarlar İttifaqının prezidenti Tomas Vonye, BMT-nin Dünya Turizm Təşkilatının turizm bazarının təhlili və rəqabətliliyi departamentinin baş mütəxəssisi Miçel Julian çıxış edərək forumun əhəmiyyətini qeyd ediblər. Çıxışlar zamanı ucuz səyahət imkanlarının turizm sənayesi üçün yaratdığı problemlər diqqətə çatdırılıb. Bildirilib ki, nəticədə kütləvi turizm getdikcə dağıdıcı xarakter daşıyaraq demoqrafik dəyişikliklərə, yerli əhalinin narazılığına, qiymətlərin artmasına, tarixi mirasın və mədəni özünəxaslığın itirilməsinə gətirib çıxarır. Bu forum tarixi şəhərlər və turistlər arasında informasiya ahənginə nail olmaq üçün memarların və digər mütəxəssislərin müzakirə edəcəyi yolların dialoquna yönəlib.

UNESCO-nun Dünya İrsi Mərkəzinin direktoru Mextild Rössler videomüraciətlə forum barədə öz fikirlərini bildirib və tədbirin işinə uğurlar arzulayıb.

Mədəniyyət naziri Əbülfəs Qarayev forumun BMİ-nin tarixində mühüm hadisə kimi qalacağını söyləyib. O, əminliyini ifadə edib ki, qonaqlar Azərbaycan memarlıq nümunələri ilə tanış olmaqla yanaşı, onun tarixi, müasir abidələrini ziyarət edərək maraqlı, yaddaqalan günlər keçirəcəklər.

Ölkəmizin qədim, maddi-mədəni abidələri barədə məlumat verən nazir son illər şəhər və qəsəbələrimizin abadlaşdırılması, onların memarlıq simasının zənginləşdirilməsi istiqamətində Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən işləri diqqətə çatdırıb. Nazir, eyni zamanda, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın ölkəmizin tarixi və memarlıq irsinin qorunması və bərpası işinə böyük diqqət ayırdığını vurğulayıb.

Əbülfəs Qarayev qeyd edib ki, ölkəmiz yaxın vaxtlarda növbəti beynəlxalq tədbirə - UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına evsahibliyi edəcək. Ümumdünya İrs Komitəsinin sessiyası dünya mədəni irsinə töhfə verən ən nüfuzlu tədbirlərdən biridir. Bu tədbirə evsahibliyi etmək və eyni zamanda, komitəyə sədrlik etməklə Azərbaycan dünya xalqlarının mədəniyyət tarixində öz müsbət izini qoyacaq.

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev belə tədbirlərin turizmin inkişafı baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıb.

Forum "Memarlıq irsinin istifadəsi və qorunub saxlanması" mövzusunda sessiya ilə davam edib. Sessiyada tarixi şəhərlərin bərpası və ya qorunub saxlanması üçün lazımi mexanizmlərin tətbiq olunması məsələləri müzakirə edilib. Müzakirə zamanı, həmçinin yerli icmanın doğma şəhərə qarşı məsuliyyət hissinin artırılması və cəlb olunan tərəflərin mirasdan tarazlaşdırılmış şəkildə istifadə imkanları kimi məsələlərə toxunulub.

Qeyd edək ki, üç gün davam edəcək forumda iştirak etmək üçün Azərbaycana 100-dən çox ölkədən 350 nəfərə yaxın xarici qonaq gəlib. Forum çərçivəsində paralel olaraq 4-cü Bakı beynəlxalq memarlıq müsabiqəsinin, iyunun 10-da Beynəlxalq Memarlar İttifaqının Şura iclasının və iyunun 11-də növbədənkənar Baş Assambleyasının keçirilməsi qərara alınıb.

# Azərbaycanın müdafiə naziri MDB Müdafiə Nazirləri Şurasının iclasında iştirak edib



İyunun 5-də Rusiya Federasiyasının Anapa şəhərində Müstəqil Dövlətlər Birliyi iştirakçı-dövlətlərinin Müdafiə Nazirləri Şurasının iclası keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov iclasda iştirak edib.

İclasdan əvvəl MDB iştirakçı-dövlətlərinin müdafiə nazirləri Böyük Vətən müharibəsində həlak olanların xatirəsinə ucaldılmış memorialı ziyarət edərək önünə əklil və gül dəstələri qoyub, qəhrəmanların xatirəsini yad ediblər. İclasda MDB çərçivəsində hərbi əməkdaşlıq məsələlərinin müxtəlif aspektləri və qarşıda duran məsələlər müzakirə olunub.

# Müdafiə Nazirliyinin baş idarələrindən birinin Komanda İdarəetmə Mərkəzinin yeni inzibati binası istifadəyə verilib

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi Azərbaycan Ordusunun modernizasiyası planına əsasən həyata keçirilən fəaliyyətlər davam etdirilir.



İyunun 6-da Müdafiə Nazirliyinin Baş İdarələrindən birinin Komanda İdarəetmə Mərkəzinin yeni inzibati binasının açılış mərasimi keçirilib.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, müdafiə naziri general-polkovnik Zakir Həsənovun iştirakı ilə mərkəzin fəaliyyəti və xidmətin təşkili barədə brifinq keçirilib. Məruzə olunub ki, mərkəz yüksək texnologiyalı bütün kommunikasiya xətləri və digər zəruri avadanlıqlarla təchiz edilmiş inzibati və xidməti iş otaqlarından ibarətdir.

Komanda İdarəetmə Mərkəzinin əsas təyinatı bilavasitə tabelikdə olan qüvvə və vasitələrin dayanıqlı idarə edilməsi, digər qoşun növləri ilə qarşılıqlı əlaqənin təmin olunması, qoşunlardan və qərargahlardan daxil olan məlumatların təhlil olunaraq yuxarı komandanlığa təqdim edilməsidir. Hər bir istiqamət üzrə əməliyyat şəraiti optik-elektron müşahidə vasitələri ilə daim nəzarətdə saxlanılır, hava və suüstü şəraitə nəzarət isə qoşun növlərinin qüvvə və vasitələri ilə qarşılıqlı fəaliyyətdə fasiləsiz həyata keçirilir.

# Dünya Bankı Azərbaycana 54 layihə üzrə kredit ayırıb

Dünya Bankı tərəfindən Azərbaycana 54 layihə üzrə kredit ayrılıb. Bunlardan 48-si başa çatdırılıb, daha 6 layihə üzrə işlər isə davam etdirilir.



İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bu barədə İqtisadiyyat naziri Şahin Mustafayev Dünya Bankının Cənubi Qafqaz üzrə səlahiyyət müddəti başa çatmış regional direktoru xanım Mersi Tembon və bankın Cənubi Qafqaz üzrə yeni regional direktoru Sebastian Molenösla görüşündə deyib.

Görüşdə M.Tembonla çox səmərəli əməkdaşlıq edildiyini vurğulayan iqtisadiyyat naziri ona bundan sonrakı fəaliyyətində uğurlar arzulayıb. Dünya Bankının Cənubi Qafqaz üzrə yeni regional direktoru S.Molenösu yeni təyinatı münasibətilə təbrik edən nazir gələcək qarşılıqlı əməkdaşlığın uğurlu olacağına əminliyini vurğulayıb.

Ş.Mustafayev bildirib ki, Azərbaycan Dünya Bankı ilə əməkdaşlığa böyük önəm verir, bankın ölkəmizə göstərdiyi texniki yardım və maliyyə dəstəyi yüksək qiymətləndirilir: "Azərbaycan Dünya Bankı ilə sıx əməkdaşlıq edir. Layihələrdə qabaqcıl beynəlxalq təcrübənin tətbiqi, müasir texnologiya və yeniliklərin ölkəmizə gətirilməsi əhəmiyyətlidir. Ümumilikdə Dünya Bankı tərəfindən Azərbaycana 54 layihə üzrə kredit ayrılıb. Bunlardan 48 layihə başa çatdırılıb, daha 6 layihə üzrə işlər isə davam etdirilir".

Qeyd edilib ki, Azərbaycan və Dünya Bankı arasında əlaqələr çoxşaxəlidir. Bankla bir sıra layihələr, o cümlədən "Bərk məişət tullantılarının vahid idarəçiliyi" layihəsi uğurla icra olunaraq Dünya Bankının mükafatına layiq görülüb.

Nazir Azərbaycanda iqtisadiyyatın, o cümlədən qeyri-neft sektorunun inkişafı istiqamətində həyata keçirilən tədbirlər, iqtisadiyyatın şaxələndirilməsi, özəl bölmənin inkişafı, ixracın genişləndirilməsi, investisiyaların təşviqi və biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər barədə məlumat verib. Diqqətə çatdırılıb ki, Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycan 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb və 10 ən islahatçı ölkə sırasına daxil edilib.

Görüşdə Dünya Bankı ilə gələcək əməkdaşlıq imkanları üzrə fikir mübadiləsi aparılıb.

M.Tembon səmərəli əməkdaşlığa görə təşəkkürünü və Azərbaycanla əməkdaşlıqdan məmnunluğunu bildirib. Vurğulanıb ki, əməkdaşlıq müddətində Azərbaycan çox dəyişib və inkişaf edib. Azərbaycanın "Doing Business" hesabatında davamlı olaraq irəliləməsi sevindiricidir və əldə olunan nailiyyətlər yüksək qiymətləndirilir.

S.Molenös isə biznes mühiti, innovasiyalar, sahibkarlığın inkişafı kimi sahələrdə malik olduğu təcrübəni bölüşməyə hazır olduğunu, Azərbaycanda aparılan iqtisadi islahatların bank tərəfindən dəstəkləndiyini vurğulayıb.

Görüşdə bir sıra sahələr üzrə qarşılıqlı maraq doğuran məsələlərlə bağlı müzakirələr aparılıb.

# Azərbaycanın Ermənistanın işğalı altındakı ərazilərində qeyri-qanuni fəaliyyət barədə məruzəsi BMT TŞ-nin sənədi kimi yayılıb

"Azərkosmos" ASC-nin və Azərbaycan XİN-in "Azərbaycanın Ermənistanın işğalı altında olan ərazilərində qeyri-qanuni fəaliyyət: peyk çəkilişlərinin məlumatları" adlanan birgə məruzəsi BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının sənədi kimi yayılıb və təşkilatın saytında yerləşdirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın BMT yanında daimi nümayəndəsi Yaşar Əliyev BMT-nin baş katibinə, Baş Assambleyanın sədrinə və Təhlükəsizlik Şurasının sədrinə Azərbaycan ərazilərinin Ermənistan tərəfindən davam edən hərbi işğalının təfərrüatlarını, Ermənistanın beynəlxalq hüququn norma və prinsiplərini pozmasına münasibətdə beynəlxalq birliyin mövqeyini əks etdirən, həmçinin "Azərkosmos" ASC-nin və Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin "Ermənistanın işğalı altında olan Azərbaycan ərazilərində qeyri-qanuni fəaliyyət: peyk çəkilişlərinin məlumatları" adlanan birgə məruzəsini BMT-yə üzv dövlətlərin diqqətinə çatdıran məktub ünvanlayıb.

Yaşar Əliyevin birgə məruzəyə, BMT TŞ-nin qətnamələrinə və ATƏT-in Azərbaycanın işğal edilmiş ərazilərində faktların müəyyən edilməsi və dəyərləndirilməsi üzrə missiyasının hesabatlarına istinadların daxil edildiyi məktubu Birləşmiş Millətlər Təşkilatının saytında yerləşdirilib (https://undocs.org/A/73/881).

Y.Əliyev BMT-nin struktur rəhbərlərinə müraciətində yazır ki, yuxarıda xatırladılan məruzədə Ermənistanın işğal etdiyi Azərbaycan Respublikası ərazilərində dayandırılmayan fəaliyyətindən, azərbaycanlıların çıxarıldıqları ərazilərdə mühacirlərin yerləşdirilməsi; təbii, kənd təsərrüfatı və su ehtiyatlarının talanması və istismarı, infrastrukturun dəyişdirilməsi, tarixi və mədəni irs abidələrinin dağıdılması və təhqir edilməsi haqqında təkzibedilməz sübutlar göstərilir.

Qeyd olunur ki, Ermənistanın bu qeyri-qanuni fəaliyyəti beynəlxalq hüquq normalarına əsasən qadağan edilməsinə, beynəlxalq birlik tərəfindən bundan əvvəlki xəbərdarlıqlara, tələblərə və qınaqlara baxmayaraq, sülh prosesi pərdəsi altında həyata keçirilir.

Azərbaycanlı diplomat qeyd edir ki, Təhlükəsizlik Şurası öz qətnamələrində Azərbaycana qarşı güc tətbiq edilməsini pisləyib, Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü, həmçinin beynəlxalq sərhədlərin toxunulmazlığını və ərazilərin ələ keçirilməsi üçün güc tətbiq edilməsinin yolverilməz olduğunu təsdiqləyib.

Ermənistanın ərazi iddialarına və güc tətbiq etməklə bağlı hərəkətlərinə cavab olaraq, TŞ Dağlıq Qarabağ regionunun Azərbaycan Respublikasının ayrılmaz hissəsi olmasını bir daha təsdiqləyib və işğalçı qüvvələrin bütün işğal olunmuş ərazilərdən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edib. Məktubda deyilir ki, digər beynəlxalq təşkilatlar da analoji mövqeni tutublar.

Beynəlxalq birlik azərbaycanlı məcburi köçkünlərin öz yurd-yuvalarına qayıtmaq hüququnu dəfələrlə təsdiqləyib. Bu hüququn erməni silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən tam çıxarılması ilə bir sırada həyata keçirilməsi münaqişənin beynəlxalq hüququn müddəalarına uyğun olaraq danışıqlar yolu ilə nizamlanmasının əsas elementi və mütləq şərtidir.

Azərbaycan hökumətinin xahişi ilə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) 2005-ci və 2010-cu illərdə Azərbaycanın işğal olunmuş ərazilərində faktların müəyyən edilməsi və dəyərləndirilməsi üzrə missiyalar keçirib. Bu missiyaların apardıqları işin yekununa görə ATƏT-in Minsk qrupunun həmsədrləri "Azərbaycanın işğal olunmuş ərazilərinin bundan sonra hər hansı şəkildə məskunlaşdırılmasına qarşı çıxış ediblər" və "tərəfləri təkidlə ...regionun strukturunda demoqrafik dəyişikliklərdən" və "bu rayonların son nizamlanmasına və ya xarakterinin dəyişdirilməsinə ziyan vuracaq hər hansı fəaliyyətdən çəkinməyə çağırıblar". ATƏT-in rəhbərliyi ilə sonuncu missiyanın keçirilməsindən doqquz il ötür.

Azərbaycanın BMT yanında daimi nümayəndəsi qeyd edir ki, lakin yuxarıda xatırladılan birgə məruzədən və digər mənbələrdən göründüyü kimi, işğal edilmiş ərazilərdə qeyri-qanuni fəaliyyət nəinki davam edib, hətta bu dövr ərzində fəallaşaraq genişləndirilib. Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərinin koloniyalaşdırılmasına və ilhaqına yönəlmiş bu siyasəti və praktikası beynəlxalq hüququn açıq-aşkar pozulmasını ifadə edir, öz yurd-yuvasından qovulmuş yüz minlərlə insanın hüquq və azadlıqlarını tapdalayır, regionda sülhə, təhlükəsizliyə və sabitliyə bilavasitə təhdid yaradır.

Yaşar Əliyevin sözlərinə görə, aşkardır ki, Azərbaycanın işğal edilmiş ərazilərində yaşayan ermənilərin sayını süni şəkildə artırmaqla orada əhalinin demoqrafik tərkibini dəyişmək və azərbaycanlı məcburi köçkünlərin öz doğma yurd-yuvalarına qayıtmalarına imkan verməmək cəhdləri, həmçinin bu ərazilərdə təbii və digər ehtiyatların istismarı, əmlakın məhv edilməsi və mənimsənilməsi münaqişənin sülh yolu ilə həllinə nail olmaq hədəflərinə əsla uyğun gəlmir.

Birləşmiş Millətlər Təşkilatı və beynəlxalq birlik Ermənistanın üzərinə götürdüyü beynəlxalq öhdəliklərə, xüsusən də işğal etdiyi Azərbaycan ərazilərində birtərəfli şəkildə demoqrafik, iqtisadi, sosial və mədəni xarakterli dəyişikliklərə istiqamətlənmiş qeyri-qanuni fəaliyyətinin dərhal, tamamilə və qeyd-şərtsiz dayandırılmasına və bu ərazilərdən geri çəkilməsinə ciddi şəkildə riayət etməsinin təminatına görə ümumilikdə məsuliyyət daşıyırlar.

"Qeyri-qanuni gücün tətbiqi və onun müvəqqəti və qeyri-sabit hərbi nəticələri problemin həlli deyildir, Ermənistan öz təcavüzünü dayandırmağa və Dağlıq Qarabağ regionundan və ölkəmizin işğal edilmiş digər ərazilərindən getməyə məcbur olacaq", - deyə azərbaycanlı diplomat qeyd edir.

Sonda Y.Əliyev məktubu Baş Assambleyanın gündəliyinin 35-ci və 41-ci bəndləri üzrə sənədi kimi və Təhlükəsizlik Şurasının sənədi qismində yayılmasını xahiş edir.

# 260 milyard dollar sərmayə, 46,7 milyard valyuta ehtiyatı

*Əvvəli 1-ci səh.*

Dövlətin imkanları artdıqca daxili siyasətin əsas istiqamətlərindən olan sosial siyasət, eləcə də əhalinin rifah halının yaxşılaşdırılmasına yönələn tədbirlər özünü daha qabarıq şəkildə göstərməyə başlayır. Uğurlu iqtisadiyyat və dövlət başçısının yeni inkişaf konsepsiyası əsasında həyata keçirilən islahatlar nəticəsində artan büdcə daxilolmaları sosial məsələlərin həlli üçün əlavə imkanlar yaradıb.

İlin əvvəlindən Prezidentin böyük sosial islahatlar paketi çərçivəsində imzaladığı fərman və sərəncamların icrası da vətəndaş məmnunluğunun daha da artmasına xidmət edir.

Cənab İlham Əliyevin imzaladığı fərman və sərəncamlara əsasən **14** kateqoriya üzrə sosial müavinətlər, **7** kateqoriya üzrə Prezident təqaüdləri orta hesabla **100** faiz artdı. Minimum əməkhaqqı və minimum pensiyalar təxminən **40** faiz, sosial müavinətlər orta hesabla **2** dəfə, məcburi köçkünlərə verilən müavinət **50** faiz çoxaldı, şəhid ailələri, müharibə veteranlarına verilən müavinətlər artdı, **602** min **347** nəfərə problemli kreditlərin ödənilməsi prosesi yekunlaşmaq üzrədir.

Görülən işlər onu deməyə əsas verir ki, həyata keçirilən bütün islahatlar uğurlu nəticələr verməkdədir. Dövlət başçısının dediyi kimi, iqtisadi, sosial sahələrdə və bütün başqa sahələrdə islahatlar davamlı olacaq. Bütün bunlar isə xalqın rifah halının yaxşılaşdırılmasına və dövlətin qüdrətinin daha da güclənməsinə xidmət edəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Sosial infrastruktur sarıdan regionlarımız şəhərlərdən geri qalmır

*Əvvəli 1-ci səh.*

Başqa bir məsələ: məlumdur ki, müasir dünyada informasiya və rabitə sahələrinin intensiv və yüksək səviyyədə inkişafı, o cümlədən mobil telefon rabitəsi və internet vacib faktorlardır. Hər bir ölkənin inkişaf səviyyəsi müəyyənləşdirilərkən bu amilə xüsusi diqqət yetirilir. Azərbaycana gəldikdə, son 15 ildə regionlarda 1600-dən çox ATS, 1000-dən çox poçt binası tikilmiş və ya əsaslı təmir edilmişdir. 2013-cü il ölkəmizdə "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan edilmiş və ilk telekommunikasiya peyki orbitə çıxarılmışdır. Dövlət proqramlarının icrası dövründə görülmüş işlər sayəsində informasiya və rabitə sahəsinin inkişafında 11 dəfədən çox artıma nail olunmuşdur.

Ümumiyyətlə, dövlət proqramları çərçivəsində regionlarda infrastrukturun bərpası və inkişafı, əhalinin kommunal xidmətlərlə, o cümlədən elektrik enerjisi, qaz və su ilə təchizatı, səhiyyə və təhsil müəssisələrinin tikintisi, əhalinin sosial vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilmiş, bu sahəyə irihəcmli dövlət investisiyaları yönəldilmişdir. Əhalinin elektrik enerjisinə olan tələbatını daha dolğun təmin etmək məqsədilə təkcə İlham Əliyevin prezidentliyi dövründə regionlarda 28 elektrik stansiyası istifadəyə verilmiş, min kilometrlərlə elektrik xətti çəkilmiş, 1700-ə yaxın yarımstansiya quraşdırılmış və ya təmir olunmuşdur. Həmçinin bu dövrdə regionlarda min kilometrlərlə qaz xətti çəkilmiş və ya əsaslı təmir olunmuş, 2000-ə yaxın yaşayış məntəqəsi təbii qazla təmin edilmiş, regionlar üzrə qazlaşdırma səviyyəsi 95 faizə çatmışdır. Bunlardan savayı, əhalinin su təminatının yaxşılaşdırılması üçün dövlət proqramları çərçivəsində regionlarda 11 min kilometr su, 6 min kilometr kanalizasiya xətti çəkilmiş, 223 su anbarı inşa olunmuş və ya yenidən qurulmuşdur. Əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılması üçün 500-ə yaxın modul tipli sutəmizləyici qurğular quraşdırılmış, regionlarda fasiləsiz içməli su ilə təmin olunan əhalinin sayı 50 faizə yaxınlaşmışdır.

Bölgə əhalisinin əsas məşğulluğu kənd təsərrüfatı ilə bağlıdır. Aqrar sektor həm də ölkənin ərzaq təhlükəsizliyinin təminatıdır. Bu baxımdan kənd təsərrüfatı məhsullarıistehsalının artırılması və yeni əkin sahələrinin dövriyyəyə daxil edilməsi üçün meliorasiya və irriqasiya layihələrinin həyata keçirilməsi çox mühüm tədbirlərdir. Belə ki, yalnız dövlət proqramlarının icrası çərçivəsində kənd yerlərində torpaqların suvarma və meliorasiya təminatının yaxşılaşdırılması, torpaq və su ehtiyatlarından səmərəli istifadə edilməsi məqsədilə 4,2 min kilometr suvarma kanalları tikilmiş, bərpa olunmuş və ya yenidən qurulmuşdur. Həmçinin Taxtakörpü, Şəmkirçay, Tovuzçay və Göytəpə su anbarları tikilmiş, min hektarlarla torpaq sahələrinin su təminatı yaxşılaşdırılmış, çox sayda subartezian quyuları qazılmışdır.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Sankt-Peterburqda MDB Dövlət İnformasiya Agentlikləri Rəhbərləri Şurasının 26-cı iclası keçirilib

Rusiyanın Sankt-Peterburq şəhərində MDB iştirakçısı olan ölkələrin Dövlət İnformasiya Agentlikləri Rəhbərləri Şurasının (İnformşura) XXVI iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, İnformşuranın sədri, TASS agentliyinin baş direktoru Sergey Mixaylov iclası açıq elan edərək gündəlikdə duran məsələnin Böyük Vətən müharibəsində Qələbənin qarşıdan gələn 75-ci ildönümü ilə bağlı hazırlıq işlərinin müzakirəsi olduğunu qeyd etdi. O, TASS agentliyinin bu istiqamətdə gördüyü və görəcəyi işlərdən danışdı, Qələbənin yubileyinin yüksək səviyyədə qeyd olunması üçün birgə səy göstərməyin vacibliyini bildirdi.

AZƏRTAC-ın İdarə Heyətinin sədri, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) və Dünya Xəbər Agentlikləri Konqresinin prezidenti Aslan Aslanov iclasda çıxış edərək gündəlikdə duran məsələnin əhəmiyyətini qeyd etdi, bu sahədə uğur qazanmaq üçün üzv agentliklərin birgə səy göstərməsinin vacibliyini vurğuladı.

"Gündəlikdə Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi ilə bağlı məsələ var. Bu tarixi hadisə bizim xalqlarımızın həyatında dərin iz buraxıb, hər birimizin ailəsinə, yaxınlarının və dostlarının ailələrinə təsir edib. Azərbaycan da bu Qələbəyə töhfə verən ölkələrdən biri kimi onu yüksək səviyyədə qeyd edir, veteranlarımıza hörmət və qayğı göstərilir. AZƏRTAC olaraq biz şuranın bununla bağlı layihələrində yaxından iştirak edəcəyimizi və öz tərəfimizdən informasiya dəstəyini göstərməyə hazır olduğumuzu bildiririk", - deyə A.Aslanov əlavə etdi.

AZƏRTAC-ın İdarə Heyətinin sədri, həmçinin İnformşuraya üzv agentliklər arasında yeni mübadilə üsullarından da danışaraq qeyd etdi ki, biz mətnli və foto informasiya mübadiləsini həyata keçiririk. Artıq həm də videoxəbərlərin mübadiləsinin vaxtı yetişib və bununla bağlı təşkilati işləri sürətləndirmək lazımdır. Bunun üçün hər hansı vahid platforma və ya mövcud platformanın təkmilləşdirilməsi üzərində düşünə bilərik. Artıq üzv agentliklərin əksəriyyətində videoxəbər istehsal edilir. Bu məsələni də diqqətdə saxlamağa dəyər.

Belarus Teleqraf Agentliyinin baş direktoru İrina Akuloviç də öz növbəsində Qələbənin 75 illiyinə hazırlıqla bağlı görülən işlərdən, ölkəsində müharibə veteranlarına göstərilən diqqət və qayğıdan danışdı. O, həmçinin cari il iyunun 21-30-da Minskdə keçiriləcək II Avropa Oyunlarına da toxundu. "Bakı 2015" I Avropa Oyunları zamanı Azərbaycan heykəltəraşları tərəfindən müxtəlif idman növlərinə aid yaradılan heykəllərin Belarusda keçirilən "İdman - yüksək incəsənət" sərgisində nümayiş olunduğunu diqqətə çatdırdı və bununla bağlı Azərbaycan tərəfinə minnətdarlığını bildirdi.

Mövzu ətrafında digər çıxış edənlər Qələbənin 75 illiyi münasibətilə keçiriləcək tədbirlərə hazırlıq məsələlərindən danışdılar, bu istiqamətdə təkliflərini bildirdilər. Həmçinin müharibə veteranlarının hələ heç yerdə görünməmiş fotolarından ibarət sərginin yaradılması təklif olundu.

TASS agentliyinin MDB və Baltik ölkələri sektorunun rəhbəri Boris Qruşin İnformşuranın layihələrinin reallaşdırılması barədə ətraflı məlumat verdi. B.Qruşin AZƏRTAC-ın bu işə böyük töhfə verdiyini vurğuladı, digər agentliklərə də informasiya mübadiləsi sahəsində yaxından iştirak etməyi tövsiyə etdi.

* * *

İclasdan sonra MDB iştirakçısı olan ölkələrin Dövlət İnformasiya Agentliklərinin rəhbərləri Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumunun plenar iclasında iştirak etdilər.

Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumunun plenar iclasında çıxış edən Rusiya Prezidenti Vladimir Putin bildirdi ki, XX əsrdə formalaşmış qlobal inkişaf modeli müasir iqtisadi reallıqlara uyğun gəlmir. Dünyada qeyri-sabitliyin başlıca mənbəyi yeni texnoloji dalğanın inhisarlaşdırılması cəhdləridir. Rusiya dövlətinin başçısı həyati vacib istehlak mallarını, o cümlədən dərman preparatlarının ticarət müharibələrinin təsirindən çıxarılmasını da təklif etdi.

Tədbirdə Çin Xalq Respublikasının Sədri Si Cinpin, Bolqarıstan Prezidenti Rumen Radev, Slovakiyanın Baş Naziri Peter Pelleqrini, BMT-nin Baş katibi Antonio Quterreş çıxış edərək iqtisadi əməkdaşlığın genişləndirilməsi yolları, miqrasiya problemləri, iqlim dəyişikliklərinin törətdiyi risklər və digər mühüm məsələlərə toxundular.

# Azərbaycan nümayəndə heyəti 23-cü Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumunda iştirak edir

İqtisadiyyat naziri Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində keçirilən 23-cü Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumunda iştirak edir.

AZƏRTAC xəbər verir ki, 1997-ci ildən etibarən keçirilən, qabaqcıl platformaya çevrilmiş forum dünyanın əhəmiyyətli iqtisadi tədbirlərindəndir və 2006-cı ildən Rusiya Federasiyasının Prezidentinin himayəsi və iştirakı ilə təşkil edilir. Forumun keçirilməsində məqsəd rəsmilərin, biznes və vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə iqtisadi problemlərin həlli istiqamətində müzakirələrin aparılmasıdır. Forumda tədbirlər ənənəvi olaraq panel sessiyalar, "dəyirmi masa"lar, televiziya verilişləri və Rusiyanın müxtəlif ölkələrlə əlaqələrinə həsr olunmuş biznes dialoqları şəklində keçirilir. Builki forum çərçivəsində "Tarazlıq axtarışında qlobal iqtisadiyyat", "Rusiya iqtisadiyyatı: Milli İnkişaf Məqsədlərinə nail olunması", "İlk növbədə insanlar", "Gələcəyi formalaşdıran texnologiyalar" kimi 4 əsas tematik istiqamətdə işgüzar müzakirələr, ikitərəfli biznes dialoqlar, B20 Regional Məsləhətləşmələr Forumu və başqa tədbirlər təşkil edilib.

İyunun 7-də Azərbaycan nümayəndə heyətinin rəhbəri, iqtisadiyyat naziri Şahin Mustafayev 23-cü Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumu çərçivəsində Leninqrad vilayətinin qubernatoru Aleksandr Drozdenko ilə görüşüb.

Görüşdə iqtisadiyyat naziri Şahin Mustafayev Azərbaycan və Rusiya dövlət başçılarının birgə səyləri, siyasi iradələri və qarşılıqlı səfərləri sayəsində ikitərəfli əməkdaşlığın strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini və əlaqələrin bütün istiqamətlərdə inkişaf etdiyini vurğulayıb. Bildirilib ki, bu baxımdan ötən ilin sentyabrında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiyaya rəsmi səfəri, aparılmış danışıqlar, səfər zamanı imzalanmış sənədlər mühüm əhəmiyyət kəsb edir. Rusiya Azərbaycanın əsas ticarət tərəfdaşlarındandır. Ötən il Rusiya ilə ticarət dövriyyəsi 19 faiz artaraq 2,5 milyard dollara çatıb. Artım meyili 2019-cu ildə də davam edir. Belə ki, bu ilin 1-ci rübündə ticarət dövriyyəsi 23 faiz artıb.

Nazir vurğulayıb ki, Azərbaycanla Rusiya Federasiyasının federal subyektləri, o cümlədən Sankt-Peterburq vilayəti arasında iqtisadi əməkdaşlıq inkişaf edir, iqtisadi-ticarət əlaqələri genişlənir. 2018-ci ildə Sankt-Peterburq vilayəti ilə ticarət dövriyyəsi 7,3 faiz artıb. Bununla belə, iqtisadi əməkdaşlığın müxtəlif sahələrdə inkişaf etdirilməsi üçün potensial böyükdür.

Leninqrad vilayətinin qubernatoru Aleksandr Drozdenko Azərbaycanla Rusiyanın Leninqrad vilayəti arasında əlaqələrin inkişaf istiqamətləri barədə fikirlərini bölüşüb, imzalanan sazişin həm Azərbaycan, həm də Leninqrad vilayəti üçün uğurlu olacağını, əməkdaşlığın genişləndirilməsində əhəmiyyətini vurğulayıb.

Görüşdə Azərbaycan və Rusiya Federasiyası Leninqrad vilayəti arasında əlaqələrin inkişafı barədə müzakirələr aparılıb.

Sonra Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyasının Leninqrad vilayəti Hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki və mədəniyyət sahələrində əməkdaşlıq haqqında saziş imzalanıb. Sazişdə təsərrüfat subyektləri arasında birbaşa əlaqələrin, qarşılıqlı ərzaq məhsulları sərgilərinin, birgə yarmarkaların təşkili, texnika və elm sahəsində əlaqələrin gücləndirilməsi, təhsil, elm, səhiyyə və mədəniyyət, turizm, idman, gənclər sahələrində fəaliyyət göstərən təşkilatlar arasında əlaqələrin qurulması və s. məsələlər nəzərdə tutulur.

Qeyd edək ki, 23-cü Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumu çərçivəsində Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) və Rusiyanın "Roskonqres" Fondu arasında əməkdaşlıq haqqında saziş də imzalanıb.

İyunun 8-də başa çatacaq Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumunda Azərbaycan və Rusiya iş adamlarının görüşünün təşkili də nəzərdə tutulur.

# Mərkəzi Elmi Kitabxana 5 illik fəaliyyətinə dair hesabat verib

İyunun 7-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanasının (MEK) yaradılmasının 95-ci ildönümünə və yeni binasının istifadəyə verilməsinin 5 illiyinə həsr olunan tədbir keçirilib. Tədbir MEK-in akademiya, oxucular və cəmiyyət qarşısında komanda hesabatı formatında təşkil edilib.

AZƏRTAC xəbər verir ki, tədbiri açan AMEA-nın prezidenti, akademik Akif Əlizadə MEK-in respublikamızda milli və dünya əhəmiyyətli elmi nəşrlərin zəngin fondlarına malik ən iri, universal təmayüllü, aparıcı elmi kitabxana olduğunu qeyd edib. O bildirib ki, zəngin tarixə malik elm və mədəniyyət ocağı AMEA sistemində bütün kompleks və sahəvi problemlər üzrə ixtisaslaşdırılmış məlumat-informasiya mərkəzi və ölkə miqyasında baş elmi-texniki informasiya müəssisəsidir.

Akademik çıxışında Prezident İlham Əliyevin sərəncamına əsasən Mərkəzi Elmi Kitabxananın yeni binasının 2011-ci ilin noyabrında təməlinin qoyulduğunu xatırladıb. Zəngin tarixə malik elm və mədəniyyət ocağı olan Mərkəzi Elmi Kitabxananın 5 ildir müasir tərtibatda fəaliyyət göstərdiyini deyib. Qeyd edib ki, bu gün burada dünyanın tanınmış kitabxanalarının təcrübəsi tətbiq edilir, kitabxanadan alim və mütəxəssislər, eləcə də digər oxucular faydalana bilir.

Müasir kitabxananın ötən müddət ərzində səmərəli fəaliyyət göstərdiyini diqqətə çatdıran akademik Akif Əlizadə kitabxanaya dövlət qayğısından da danışıb, beynəlxalq təşkilatların kitabxana ilə əməkdaşlıq əlaqələri qurmağa maraqlı olduğunu bildirib.

AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli ölkəmizdə elmin inkişafına göstərilən dövlət qayğısından danışıb. O, 95 yaşlı Mərkəzi Elmi Kitabxananın müasir dövrə qədər keçdiyi tarixi yoldan bəhs edib. Akademik İsa Həbibbəyli MEK-i dünyanın aparıcı kitabxanaları ilə müqayisə edib. MDB ölkələrində MEK-in ən müasir kitabxana olduğunu söyləyib. Bildirib ki, Mərkəzi Elmi Kitabxana akademik elmi təbliğ etməklə yanaşı, həm də ideoloji mərkəzdir, milli maraqlara xidmət edir, burada dövlət əhəmiyyətli tədbirlər keçirilir.

MEK-in direktoru Leyla İmanova ötən 5 il ərzində görülən işlərdən danışıb. Bildirib ki, MEK üçün bu illərin məramı kitabxananı akademik icmanın informasiya mərkəzinə çevirmək olub.

"MEK öz fəaliyyətini piramida formatında qurdu. İlk olaraq klassik kitabxana möhkəmləndirildi, fondlar və sənədləşmə nizamlandı, oxucuların sayı bütün ötən illərin kumulyativ sayını - 5500-ü ötdü, 1,5 milyon sənəddən ibarət fondda nadir kitabların sayı 17 minə, İxtisas fondu 14 minə, kolleksiyaların sayı 60-a çatdırıldı. Növbəti mərhələdə müasir standartlara cavab verən elektron xidmətlər, elektron kataloq, e-baza tətbiq edildi, MARC 21 formatlı rəqəmsal bazada sənədlərin sayı 16 mini keçdi. Piramidanın zirvəsində isə MEK-in "ilk"ləri kimi imza atdığı "Milli Rəqəmsal Yaddaş", "Vahid İdarəetmə Sistemi" və "İnformasiyanın kontent təhlükəsizliyi" adlı yeni təşəbbüslər və layihələr yer tutdu. Nəticədə Azərbaycanca "Vikipediya" 61-ci pillədən 49-a irəlilədi, məqalələrin sayı 150 minə, elmiləşmiş MRY bazasında isə sənədlər 16 minə çatdı",- deyə direktor qeyd edib.

Tədbirdə MEK-in fəaliyyətinə həsr olunmuş film nümayiş olunub. Videohesabatda MEK-in qısa müddət ərzində yeni binaya köçürülməsindən, 18 yaşına çatmış bütün Azərbaycan vətəndaşları və xarici ölkələrin nümayəndələrinə açıq olan, iki növbədə çalışan kitabxananın fəaliyyətindən, geniş elmi elektron bazalara çıxışın təmin edilməsindən, MEK fondlarından, müxtəlif kolleksiyalardan, fondların ictimaiyyətə müntəzəm açıqlanmasından, Azərbaycan Mətbuat Şurası başda olmaqla ölkənin aparıcı mətbu orqanları, eləcə də digər təşkilatlarla əməkdaşlıqdan, yerli və beynəlxalq miqyaslı tədbirlərdən bəhs olunub.

Azərbaycan Milli Kitabxanasının direktoru, professor Kərim Tahirli, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının direktoru Mayıl Əhmədov, akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun direktoru, akademik Vaqif Abbasov, əməkdar elm xadimi, professor Tofiq Mustafazadə, Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov müasir avadanlıqlarla tam təchiz olunmuş, yeni standartların tələblərinə cavab verən kitabxananın fəaliyyətinin Azərbaycan elmi ictimaiyyəti üçün əhəmiyyətindən bəhs ediblər.

Sonda MEK-in əməkdaşları fəxri fərmanlarla təltif olunub.

# XİN: "Dağlıq Qarabağın erməni və azərbaycanlı icmalarının nümayəndələri ilə görüşlər həmsədrlərin mandatının bir hissəsini təşkil edir"

Son günlər bəzi KİV nümayəndələri ATƏT-in Minsk qrupunun həmsədrlərinin bölgəyə son səfəri çərçivəsində Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması ilə görüşünə dair bəzi mülahizələrlə çıxış edirlər.

Bununla bağlı qeyd etmək istərdik ki, bu, belə formatda keçirilmiş ilk görüş deyil. Bugünədək həmsədrlər bölgəyə səfərləri çərçivəsində Dağlıq Qarabağın erməni icması ilə görüşdükləri kimi, azərbaycanlı icmanın nümayəndələri ilə də silsilə görüşlər keçiriblər. Burada təəccüblü heç bir şey yoxdur, bu, həmsədrlərin mandatının bir hissəsini təşkil edir.

Bu barədə AZƏRTAC-a Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Həmsədrlərin 1995-ci il tarixli mandatında qeyd edilir: "Həmsədrlər öz fəaliyyətlərində ATƏT-in norma və prinsiplərini, BMT Nizamnaməsini, ATƏM qərarlarını, o cümlədən Nazirlər Şurasının 1992-ci il 24 mart tarixli qərarını və Budapeşt zirvə görüşünün qərarlarını, eləcə də BMT TŞ-nin müvafiq qətnamələrini rəhbər tutacaqlar". Həmsədrlərin bu il martın 9-da verdikləri bəyanatlarında onların vasitəçiliyi ilə Yerevan və Bakı arasında aparılan təmaslarla yanaşı, maraqlı tərəflərlə də müzakirələrin davam etdirildiyi qeyd olunub.

Vurğulamaq istərdik ki, Dağlıq Qarabağın azərbaycanlı icmasının mövqeyi və digər məcburi köçkünlərlə yanaşı, onların öz torpaqlarına geri qayıtması məsələsi hər zaman danışıqların bir hissəsini təşkil edib. Bu məsələ həmsədrlərin yuxarıda qeyd edilən bəyanatında da öz əksini tapıb və "bütün məcburi köçkünlərin və qaçqınların öz evlərinə geri qayıtması" danışıqların mühüm elementi qismində əks olunub. Birmənalı şəkildə qeyd etmək olar ki, ölkəmizin Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması danışıqların mühüm hissəsini təşkil edir.

Eyni zamanda, nəzərə almaq lazımdır ki, münaqişənin həlli üzrə danışıqlar ATƏT-in müvafiq qərarlarına uyğun olaraq Ermənistan və Azərbaycan arasında aparılır və bu yanaşma Minsk qrupunun həmsədrləri tərəfindən də dəstəklənir.

"Sonda, danışıqlar masasında hansı məsələlərin müzakirə edildiyini sorğu edənlərə çox sadə cavab verərək, onları Minsk qrupu həmsədrlərinin bu ilin 9 mart tarixli bəyanatı ilə tanış olmağa çağırırıq. O zaman bütün möhtəkirliyə son qoyulacaq", - deyə məlumatda qeyd olunub.

# Məzahir Pənahovun başçılıq etdiyi nümayəndə heyəti Qazaxıstanda prezident seçkilərini müşahidə edəcək

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahovun başçılıq etdiyi geniş nümayəndə heyəti iyunun 9-da Qazaxıstan Respublikasında keçiriləcək növbədənkənar prezident seçkilərini müşahidə etmək məqsədilə bu ölkəyə səfər edib.

Mərkəzi Seçki Komissiyası Katibliyinin media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Qazaxıstan Mərkəzi Seçki Komissiyasının sədri Berik İmaşevin dəvətinə əsasən gerçəkləşdirilən səfər çərçivəsində M.Pənahovun qazaxıstanlı həmkarı və digər rəsmi şəxslərlə bir sıra görüşlər keçirməsi, ali seçki qurumları arasında əməkdaşlığın daha da inkişaf etdirilməsinin perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər ətrafında müzakirələr aparılması nəzərdə tutulur.

Qeyd edək ki, Azərbaycan MSK təmsilçiləri, həmçinin ATƏT/DTİHB, MDB və Türk Şurasının tərkibində də sözügedən seçkilərin müşahidəsinə qatılıblar.

MSK nümayəndələri səsvermə günü paytaxt Nur-Sultanda və bölgələrdə yerləşən seçki məntəqələrində müşahidə aparacaqlar.

# Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Rəhimov iyunun 7-də İsmayıllı şəhərindəki Heydər Əliyev Mərkəzində İsmayıllı, Qəbələ və Oğuz rayonlarından olan vətəndaşları qəbul edib.

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, qəbulda 15 nəfər vətəndaş iştirak edib. Vətəndaşların müraciətləri əsasən idman qurğularına lazımi avadanlığın verilməsi, qeyri-hökumət təşkilatlarının yaradılması, idmançıların beynəlxalq yarışlarda iştirakı ilə bağlı olub. Müraciətlərdə qaldırılan məsələlər arasında Gənclər evlərinin tikintisi, fəxri adların və məşqçilik dərəcələrinin verilməsi, eyni zamanda şəxsi məsələlər də yer alıb.

Müraciətlərin bir qismi yerindəcə həllini tapıb. Nazirliyin səlahiyyətlərinə aid olmayan müraciətlərin qeydə alınaraq aidiyyəti üzrə göndəriləcəyi bildirilib. Bir qisim müraciət isə baxılması üçün icraya yönəldilib.

* * *

İyunun 7-də "Azəriqaz" İstehsalat Birliyinin (İB) baş direktoru Əkbər Hacıyev Ağsu şəhərində, birliyin baş direktorunun müavinləri Ramil İsgəndərov Qobustan, Ruslan Əliyev isə Şamaxı rayonunda vətəndaş qəbulu keçiriblər.

"Azəriqaz"dan bildirilib ki, Energetika Nazirliyi və Enerji Məsələlərini Tənzimləmə Agentliyinin rəsmilərinin də iştirak etdiyi qəbulda Ağsu, Qobustan və Şamaxı rayonlarından olan vətəndaşların müraciətlərinə baxılıb. Vətəndaşların müraciətlərinin əksəriyyəti yaşayış məntəqələrinin qazlaşdırılması, işə qəbul, qaz xətlərinin yerinin dəyişdirilməsi və müxtəlif məsələlərlə bağlı olub.

Birliyin rəhbərliyi hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib və qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli barədə müvafiq strukturların rəhbərlərinə tapşırıqlar verib. Vətəndaşların qəbul zamanı qaldırdıqları məsələlərin bir qismi yerindəcə həll olunub. "Azəriqaz"ın səlahiyyətlərinə aid olmayan məsələlərlə bağlı müraciətlər isə müvafiq orqanlara çatdırılması üçün qeydiyyata alınıb və nəzarətə götürülüb.

* * *

Gənclər və idman nazirinin müavini İntiqam Babayev iyunun 7-də Şəki Olimpiya İdman Kompleksində Şəki şəhərindən və Qax rayonundan olan vətəndaşları qəbul edib.

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, qəbulda ona yaxın gənc və idman ictimaiyyətinin nümayəndəsi iştirak edib.

Qəbulda iştirak edən vətəndaşların müraciətləri Gənclər evinin tikintisi, fəxri adların verilməsi, müxtəlif təyinatlı yay düşərgələrinin təşkili, "Xəmsə" intellektual oyunu üçün sistemin verilməsi və s. mövzularla bağlı olub.

***AZƏRTAC***

## İŞİMİZ, GÜZƏRANIMIZ

# Dövlət Neft Fondu - bugündən sabaha etibarlı əmanət

## Prezident İlham ƏLİYEV: “Neft Azərbaycana rifah, inkişaf, sabitlik, güc gətirir”

*Hərtərəfli inkişaf edən, iqtisadiyyatı gündən-günə güclənən Azərbaycan indi dünyanın sayılıb-seçilən ölkələri sırasında addımlayır. Ələlxüsus ölkəmizin həyata keçirdiyi neft-qaz və ixrac layihələri beynəlxalq aləmdə diqqət mərkəzindədir. Ən önəmlisi də budur ki, Azərbaycan dövləti həmin layihələrin reallaşması nəticəsində əldə olunan gəlirlərdən səmərəli şəkildə istifadə edərək digər sahələrdə mühüm işlər həyata keçirir, dünyanın hər yerinə yollar çəkir, dəhlizlər açır, körpülər salır.*

Ümummilli lider Heydər Əliyevin uzaqgörənliklə dediyi sözlər yada düşür: “Azərbaycanın böyük neft və qaz sərvətlərinə malik olması bizim xalqımızın xoşbəxtliyidir və bu gün üçün, gələcək üçün, xalqımızın yaxşı yaşaması üçün, ölkəmizin inkişaf etməsi üçün əsas amildir”. Təbiətin bizə böyük səxavətlə bəxş etdiyi sərvətin məhz bu ali məqsədlərə yönəldilməsi üçün ulu öndər Azərbaycan Respublikası Dövlət Neft Fondunu (ARDNF) yaratmışdır. Bu qurum artıq 20 ildir Azərbaycana şərəflə, saflıq-şəffaflıqla xidmət edir.

Bütün bunlar haqqında danışanda istər-istəməz keçmişə ötəri olsa da nəzər salmaq lazım gəlir. Axı Azərbaycanın adı dünya tarixinə neftin vətəni kimi həkk olunub. İlk dəfə sənaye üsulu ilə neft 1846-cı ildə məhz Bakıda çıxarılıb. Əlbəttə, o zaman belə bir sərvət böyük ölkələrin iri kapitalistlərinin diqqətini çəkməyə bilməzdi. Odur ki, həmin dövrlərdə neft maqnatları Azərbaycana axışıblar. Nobellər, Mantaşevlər, Rotşildlər torpağımızın qara qızıl “qan”ını sorub aparmaq üçün özlərini oda-közə vurublar.

Azərbaycan neftinin böyük bir hissəsi də Xəzərin dərinliklərində “uyuyurdu” və bu, çoxdan bəlli idi. Lakin primitiv texnika, üstəlik neft krallarının bir-biri ilə rəqabəti bu sərvəti əldə etməyə imkan vermirdi.

Xoşbəxtlikdən Xəzərin dibindəki qara qızıl sərvətini üzə çıxarmaq keçən əsrin ortalarında Azərbaycan neftçilərinin özünə qismət oldu. 1949-cu ildə “Neft Daşları”nda ilk quyu fontan vurdu. Başqa sözlə, dünyada dəniz neftinin erası da Azərbaycandan, Xəzərdən başlandı.

Sovet dönəmində Azərbaycanda böyük həcmdə neft çıxarılırdı. Lakin keçmiş SSRİ-nin planlı təsərrüfatı, ittifaqa daxil olan bütün respublikaların ümumi büdcədən eyni dərəcədə faydalanmasına əsaslanan qaydaları təbiətin bəxş etdiyi bu zənginlikdən xalqımızın lazımınca bəhrələnməsinə aman vermirdi.

Müstəqilliyin ilk illəri isə Azərbaycan üçün çətin keçdi. Ölkəni idarə edənlərin məsuliyyətsizliyi və səriştəsizliyi ucbatından neft-qaz sənayesi də tənəzzülə uğradı. Dönüş isə yalnız ulu öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra baş verdi. 1994-cü ildə dünyanın ən tanınmış neft şirkətləri ilə “Azəri-Çıraq-Günəşli” yataqlarının birgə işlənməsi üçün saziş imzalandı. Azərbaycan iqtisadiyyatının “qəddini düzəldən”, ölkənin gələcək inkişafına təkan verən bu möhtəşəm kontrakt “Əsrin müqaviləsi” adını aldı. “Əsrin müqaviləsi” ölkəmizin yeni neft-qaz strategiyasının əsasını qoydu və təsdiqlədi ki, müstəqil Azərbaycanın xalqı suveren hüquqlara malikdir və öz sərvətinin sahibidir.



Bu sərvətin xalqa davamlı şəkildə xeyir-bərəkət gətirməsi məqsədilə 1999-cu il dekabrın 29-da ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikası Dövlət Neft Fondunun təsis edilməsi haqqında fərman imzaladı. Bir il sonra - 2000-ci il dekabrın 29-da ulu öndərin növbəti fərmanı ilə ARDNF-nin Əsasnaməsi təsdiq olundu. Bundan yarım il sonra isə daha bir fərmanla fondun vəsaitlərinin yerləşdirilməsi qaydaları təsdiq edildi və qurum əməli fəaliyyətə başladı.

ARDNF-nin fəaliyyəti xeyirxah, məqsədyönlü və uzaqgörən siyasət əsasında qurulub. Qurumun qarşısında çox mühüm vəzifələr dayanır ki, onlardan da ölkədə makroiqtisadi sabitliyin qorunması, neft gəlirlərindən asılılığın azaldılması, qeyri-neft sektorunun inkişafının təmin edilməsi və s. xüsusilə əhəmiyyətli yer tutur. Fondun fəaliyyəti eləcə də ölkənin sosial-iqtisadi tərəqqisi naminə nəhəng ümummilli layihələrin maliyyələşdirilməsinə yönəldilib.

Neft ehtiyatlarının bərpa olunmadığı, yəni hasil edildikcə tükəndiyi hamıya yaxşı məlumdur. Ona görə neft fondunun ən başlıca vəzifələrindən biri gəlirlərin nəsillər arasında bərabər bölüşdürülməsi, gələcək üçün ehtiyat vəsaitlərin toplanmasıdır.

Qeyd edək ki, bir sıra ölkələrdə də analoji fondlar fəaliyyət göstərir. ARDNF yaradılarkən həmin fondların təcrübəsinə müraciət olunmaqla yanaşı, bugünkü həlli təxirəsalınmaz problemləri nəzərə alan bir model seçilib.

Bu problemlər sırasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində yurd-yuvasından didərgin salınmış insanların sosial-məişət vəziyyətinin yaxşılaşdırılması ən vaciblərindən idi. Beləliklə, fonddan ilk növbədə bu problemin həllinə vəsait yönəldildi.

2017-ci il mayın 31-də 24-cü Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin açılışındakı nitqində Prezident İlham Əliyev demişdir: “Dövlət Neft Fondunun xətti ilə ölkəmiz üçün ən önəmli layihələrin icrası nəzərdə tutulur. Onlardan birincisi məcburi köçkünlərin problemlərinin həllidir. Son illər ərzində məhz neft fondunun vəsaiti hesabına məcburi köçkünlər üçün 100-ə yaxın qəsəbə salınıbdır. Bu vəsait, əlbəttə, neft əməliyyatlarının gəlirlərindən formalaşır və bu gün biz özümüzü dünyada müasir, dinamik inkişaf edən ölkə kimi təsdiq edə bilmişik”.

İndi bu qəsəbələrin sayı 100-dən artıqdır. 10 ildən çoxdur çadır şəhərcikləri ləğv olunub. Təkcə keçən il 6 min köçkün ailəsinə mənzillər təqdim edilib.

Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəməri layihəsində Azərbaycanın iştirak payını da neft fondu maliyyələşdirdi. 2005-ci ilin mayında Bakı yaxınlığındakı Səngəçal terminalında ilk yükünü qəbul edən BTC 2006-cı ilin iyulunda tam bir sistem kimi işə düşdü. Həmin vaxtdan fasiləsiz və təhlükəsiz işləyən kəmərin özü bu gün artıq təkcə Azərbaycana deyil, bütün regiona xeyir-bərəkət gətirir.

Hazırda BTC ilə “Azəri-Çıraq-Günəşli” nefti və “Şahdəniz” kondensatı ilə yanaşı müəyyən həcmdə Türkmənistan, Qazaxıstan və Rusiya nefti də nəql olunur. Beləliklə, Azərbaycanın tranzit sahəsində etibarlı tərəfdaş kimi nüfuzu artır.

ARDNF-nin maliyyələşdirdiyi hər layihə sıradan bir layihə deyil. Onlar iqtisadiyyatın şaxələndirilməsinə, növbəti layihələrin gerçəkləşməsinə, sosial infrastrukturun genişlənməsinə, bir sözlə, ölkənin davamlı inkişafına xidmət edir. Məsələn, BTC-nin çəkilməsi ilə Azərbaycan, obrazlı desək, beynəlxalq enerji aləminə bir qapı açdı. Sonra bu qapıdan daxil olaraq digər önəmli layihələr həyata keçirdi. “Cənub qaz dəhlizi” kimi nəhəng bir layihənin reallaşmasının təşəbbüsçüsü və lideri kimi çıxış etdi.

Yeri gəlmişkən, neft fondundan “Cənub qaz dəhlizi”nin çəkilişinə də vəsaitlər ayrılıb. Hazırda bu dəhlizin dörd komponentindən üçü - “Şahdəniz-2”, Azərbaycandan başlayaraq Gürcüstan-Türkiyə sərhədinə kimi uzanan CQBK (Cənubi Qafqaz Boru Kəməri), Türkiyə ərazisindən keçən TANAP (Transanadolu Qaz Boru Kəməri) artıq gerçəkləşib. Bir ildən çoxdur TANAP-la Türkiyəyə “Şahdəniz”qazı nəql olunur. Yunanıstan, Albaniya və İtaliyanı birləşdirən TAP-ın (Transadriatik Qaz Boru Kəməri) çəkilişi də sona yaxınlaşır.

“Cənub qaz dəhlizi” qarşıdan gələn 100 il ərzində Azərbaycan xalqına xidmət edəcək və milli iqtisadiyyatın inkişafında mühüm amil olacaq. Ölkəmizin regionda və Avropada nüfuzunun artmasını, Azərbaycanla Qərb arasında münasibətlərin daha yüksək pilləyə qalxmasını şərtləndirəcək. Azərbaycanın enerji ixrac edən və tranzit ölkə kimi əhəmiyyəti daha da artacaq. Layihədə iştirak edən bütün ölkələr, şirkətlər mənfəət əldə edəcək. Bu layihə Azərbaycana böyük gəlirlər gətirəcək, insanların rifahının yüksəlməsinə təsir göstərəcək. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, “Cənub qaz dəhlizi” Azərbaycanın liderliyi ilə həyata keçirilən, tarixi əhəmiyyətə malik, xalqımızın firavan gələcəyini təmin edən, regionda, Avropada təhlükəsizliyin, əməkdaşlığın möhkəmlənməsinə xidmət göstərən qlobal layihədir.

Azərbaycan neftdən və qazdan gələn gəlirləri eyni zamanda nəqliyyat sektoruna yönəltdi. ARDNF-nin vəsaitləri hesabına Bakı-Tbilisi-Qars dəmir yolu kimi əhəmiyyətli bir layihəni maliyyələşdirdi. Bunlar Azərbaycanı nəinki bölgədə, bütün Avrasiya məkanında nəqliyyat mərkəzinə çevirdi. Görülmüş işlər indi ölkəmizin ərazisindən böyük həcmli yüklərin Şərqdən Qərbə, Qərbdən Şərqə daşınmasına imkan verir.

Xoşbəxt o xalqdır ki, vətəninin yeraltı və yerüstü sərvətləri onun bugünkü xoş güzəranına və daha işıqlı sabahına xidmət edir. Azərbaycan dövləti öz əməli fəaliyyətində, həyata keçirdiyi islahatlarda bu məqsədi rəhbər tutur. Odur ki, neft fondundan vəsait ayıraraq Oğuz-Qəbələ-Bakı kəmərini çəkib paytaxta bulaq suyu gətirdi. Samur-Abşeron kanalının rekonstruksiyası nəticəsində tarlalara, əkin sahələrinə bərəkət bəxş etdi, digər çoxsaylı sosial və infrastruktur layihələrini həyata keçirdi.

Neft fondunun vəsaiti xaricdə təhsil alan neçə-neçə azərbaycanlı gəncə dəstək verdi. Bu proses yenə də davam edir. Beləcə, neft gəlirləri təhsilin, səhiyyənin, mədəniyyətin və digər sahələrin inkişafına da yardım göstərir. Xalqın güzəranı ildən-ilə daha da yaxşılaşır. Ölkədə yoxsulluğun səviyyəsi 50 faizdən 5,4 faizə, işsizlik 5 faizə enib. Bu göstəriciyə dünyanın bir çox, o cümlədən inkişaf etmiş ölkələri qibtə edə bilər. Bir sözlə, Azərbaycan dövləti neft kapitalını insan kapitalına çevirib!

Təsadüfi deyil ki, ölkəmizin sosial-iqtisadi sahədə qazandığı nailiyyətlər nüfuzlu beynəlxalq maliyyə qurumları tərəfindən dönə-dönə etiraf olunur. Bunu Azərbaycanın adının həmin qurumların reytinq cədvəllərində ildən-ilə daha irəliyə çəkilməsi də təsdiqləyir.

2017-ci il noyabrın 8-də Azərbaycanda 2 milyard ton neft hasil olunması münasibətilə keçirilən təntənəli mərasimdə Prezident İlham Əliyev demişdir: “Əsrin kontraktı”nın nəticələri, sadəcə olaraq, neft fonduna gələn gəlirlərlə ölçülmür. Bunun çox geniş və çox böyük təsiri olub və bu gün də var. Biz qara qızılı insan kapitalına çevirə bildik. Biz neft gəlirlərimizdən çox səmərəli şəkildə istifadə etdik və bu gün dünya miqyasında bu, xüsusilə qeyd edilir. Bir çox ölkələrin zəngin neft yataqları var, ancaq o ölkələr səfalət içindədir, yoxsulluq şəraitində yaşayırlar. O ölkələrdə sabitlik pozulur, neft o ölkələrə fəlakət gətirir. Azərbaycanda isə neft rifah, inkişaf, sabitlik, güc gətirir. Bu gün Azərbaycanın müstəqil ölkə kimi yaşamasında, iqtisadi potensialımızın formalaşmasında neft-qaz amili çox böyük rol oynayır”.

Bütün bu işlərin uğurlu həlli ulu öndər Heydər Əliyevin qurub-yaratdığı və Prezident İlham Əliyevin gündən-günə inkişaf etdirdiyi müstəqil Azərbaycanın Dövlət Neft Fondundan qaynaqlanır.

...Bakının müasir göydələnləri arasında özünəməxsus görkəmi ilə seçilən bir bina da var. İnşaat aləmində “BREEAM Assessment” adlanan qiymətləndirmə dərəcələrinin tələblərinə uyğun olaraq tikilmiş, yaşıllıq və geniş infrastrukturla əhatə edilmiş bir bina. Bu, ARDNF-nin binasıdır. İnteryeri Azərbaycanın Bakı, Şirvan, Təbriz, Gəncə, Naxçıvan, Qarabağ, Quba, İrəvan və Qazax, bir sözlə, 9 xalçaçılıq məktəbinin elementlərini özündə cəmləşdirən dizayn əsasında qurulub.

Bu görkəm, bu tərtibat sanki bir daha xatırladır: Azərbaycan xalqının bütün sərvətləri özünə məxsusdur. İstər maddi, istərsə də qeyri-maddi sərvətləri. Biz bu sərvətlərdən düzgün bəhrələnir, onları qoruya-qoruya, artıra-artıra daha böyük və işıqlı gələcəyə doğru gedirik.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

*Yazı Azərbaycan Respublikası Dövlət Neft Fondu və Azərbaycan Mətbuat Şurasının ARDNF-nin yaradılmasının 20-ci ildönümü münasibətilə keçirdiyi “Suveren fondların inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatında rolu: Azərbaycan Respublikası Dövlət Neft Fondunun timsalında” müsabiqəsinə təqdim olunur.*

# DOST-ların sayı artacaq

## İlham ƏLİYEV: “DOST mərkəzləri müasir Azərbaycanın simasını əks etdirir”

*Əvvəli 1-ci səh.*

Müasirlik, yenilik, islahatlar, gənclərin bu işlərə böyük dərəcədə qoşulması ölkəmizin inkişafına xidmət göstərəcək”.

Yeri gəlmişkən qeyd edək ki, 2019-2025-ci illərdə Bakıda və regionlarda 31 DOST mərkəzi istifadəyə verilməsi hədəflənib. Artıq gələn ildən bölgələrdə belə mərkəzlərin qurulmasına başlanacaq. 31 mərkəz ümumən “bir pəncərə” prinsipi üzrə 2,8 milyon şəxsə əmək, məşğulluq, əlillik, sosial təminat sahələri üzrə 126 növdə xidmət göstərəcək.







İstifadəyə verilmiş DOST mərkəzi isə artıq gün ərzində təxminən 350 vətəndaşa xidmət göstərir. İlkin mərhələdə Bakının Yasamal və Səbail rayonlarının əhalisi üçün nəzərdə tutulan mərkəz il ərzində 100 mindən artıq vətəndaşın qeyd olunan sahələr üzrə xidmətlərlə təminatına imkan verəcək. Bütün mərkəzlər fəaliyyətə başlayandan sonra isə onlar vətəndaşların hansı rayonda qeydiyyatından asılı olmayaraq müraciət edən hər kəslə DOST-luq edəcəklər. Yəni “Pensiya və sosial sığorta”, “Sosial müavinətlər və təqaüdlər”, “Əlillik, tibbi ekspertiza və protez-ortopedik təminat”, “Sosial xidmətlər və övladlığagötürmə məsələləri”, “Əmək münasibətləri”, “Məşğulluq xidmətləri”, “Sosial-hüquqi, sosial-pedaqoji, sosial-psixoloji, sosial-məişət xidmətləri”, “Bank və notarius xidmətləri” və s. bölmələrdə vətəndaşların müraciətlərini qəbul edəcək, eyni zamanda onlara məsləhət və məlumat verəcəklər. Telefon və ya internet vasitəsilə müraciət edənlər də cavabsız qalmayacaqlar. İstifadəyə verilmiş ilk mərkəzin fəaliyyətindən o da məlum olur ki, nazirliyin aidiyyəti qurumlarının fəaliyyəti mərkəzdə əlaqəli şəkildə təmin ediləcək, hətta əlilliyi olan şəxslərin hərəkət imkanları nəzərə alınacaq. Xidmətlər vahid standartlar əsasında və bir-birinə inteqrasiya olunmuş şəkildə elektron müstəvidə təqdim olunacaq. Mərkəzlərdə həmçinin Çağrı mərkəzi (142) fəaliyyət göstərəcək.

Başqa bir fakt: fəaliyyətə başlamış ilk DOST mərkəzində sosial agentlər və sosial işçilərlə bərabər “GƏNC DOST” könüllülər proqramı əsasında 50 könüllü də çalışır. Məlumat üçün bildirək ki, bu proqram özündə dövlətçilik və vətənpərvərlik, ictimai-sosial məsuliyyətlilik, birlik və əməkdaşlıq, qayğıkeşlik və yardımsevərlik prinsiplərini ehtiva edir, gənclərin əmək bazarına hazırlığına şərait yaradır. Bundan başqa, DOST Agentliyində “Gümüşü könüllü” proqramına start verilib. Həmin proqram çərçivəsində isə hətta pensiya yaşına çatmış şəxslər könüllülük fəaliyyətinə cəlb edilir ki, bu da pensiya yaşına çatmış şəxslərin fəal həyat tərzinin təmin olunmasına, asudə vaxtlarının səmərəli təşkilinə dəstək məqsədi daşıyır.

İlk mərkəzin fəaliyyətinə əsaslanıb sonda onu da bildirək ki, DOST konsepsiyası təkcə eyniadlı mərkəzlərə əyani müraciət edənlərə deyil, müxtəlif kateqoriyalı imtiyazlı şəxslərə səyyar xidmətlərin göstərilməsini də nəzərdə tutur. Hədəfdə olan həmçinin mərkəzin onlayn xidmətlərinin bazasının hər zaman genişləndirilməsidir. Söz düşmüşkən: DOST konsepsiyası üzrə yol xəritəsində mərkəzlərdə göstəriləcək 126 xidmətin 91-nin elektronlaşması proqnozlaşdırılıb və təqdir olunası faktdır ki, layihənin icrasına başlanıldığından bugünədək həmin xidmətlərdən 20-dən çoxu artıq elektronlaşdırılıb. Bu gedişlə növbəti iki ildə digərlərinin də elektronlaşdırılması və beləliklə, onlayn platformada geniş DOST xidmətləri sisteminin qurulacağı şübhəsizdir.

Onu da bildirək ki, Beynəlxalq Sosial Təminat Assosiasiyasının (BSTA) ötən ay Bakıda keçirilən Avropa Regional Sosial Təminat Forumunun iştirakçıları - BSTA-nın prezidenti Yoakim Bröyer, xəzinədarı, Rusiya Pensiya Fondu idarə heyətinin sədr müavini Nikolay Kozlov, Almaniya Bədbəxt Hadisələrdən Sosial Sığorta Təşkilatının (DGUV) beynəlxalq sosial siyasət üzrə baş eksperti Karolin Könih, Fransanın Milli Tibbi Sığorta Fondunun (CNAM) prezidenti Viliam Qardey və digər qonaqlar DOST Agentliyində və ilk DOST mərkəzində olmuşlar. Onlar Azərbaycanın DOST layihəsinin uğurlu bir yenilik, təkmil bir təcrübə olduğunu etiraf etmişlər.

Hazırda dünyada “bir pəncərə” prinsipi üzrə bir sıra sosial xidmət təcrübələri olsa da, Azərbaycanın DOST layihəsi əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələri üzrə 126 xidmətin “bir pəncərə”dən təqdim edilməsinə imkan verən kifayət qədər geniş xidmətlər arealını, innovativ yenilikləri özündə əhatə edən unikal bir layihə kimi diqqəti cəlb edir. Bu mənada DOST layihəsi Azərbaycanın yeni brendi kimi özünü təsdiq etməkdə qərarlıdır.

***Raqif MƏMMƏDLİ,***
***“Azərbaycan”***

# Azərbaycan Mərkəzi Bankı uçot dərəcəsini endirib

Azərbaycan Respublikası Mərkəzi Bankının (AMB) idarə heyəti uçot dərəcəsinin 8,75 faizdən 8,5 faizə endirilməsi haqqında qərar qəbul edib. Bu barədə Mərkəzi Bank məlumat yayıb.

Məlumatda bildirilir ki, faiz dəhlizinin yuxarı həddi 10,5 faiz, aşağı həddi isə 6,5 faiz (uçot dərəcəsinə ±2 faizlik simmetrik diapazonda) səviyyəsində müəyyən olunub.

Bu qərar faktiki inflyasiyanın hədəf diapazonunun (4±2 faiz) mərkəzindən aşağıda olması, inflyasiya gözləntilərinin sabitliyi, xarici mühitin əlverişli qalması və yenilənmiş makroiqtisadi proqnozlar nəzərə alınmaqla qəbul edilib.

**İnflyasiya prosesləri**

İnflyasiya gözlənilən trayektoriyada dəyişir. Bu ilin aprel ayında 12 aylıq inflyasiya hədəf çərçivəsində olmaqla 3,1 faiz təşkil edib. Ərzaq və xidmətlər üzrə qiymət artımı (müvafiq olaraq 3,5 faiz və 3,8 faiz) hədəf intervalında formalaşıb. Qeyri-ərzaq məhsullarının qiymətləri isə 1,4 faiz yüksəlib. May ayında mövsümi amillərin təsiri ilə istehlak səbətində mühüm xüsusi çəkiyə malik ərzaq məhsullarının ucuzlaşması müşahidə olunub.

**İnflyasiya gözləntiləri**

İstehlak qiymətlərinin cari dinamikası və valyuta bazarında tarazlıq inflyasiya gözləntilərini stabil saxlayır. Real sektor monitorinqinin nəticələrinə əsasən son ayda qiymət gözləntiləri ticarət, xidmət və tikinti sektorlarında azalıb, qeyri-neft emal sənayesində dəyişməz qalıb.

Kənd təsərrüfatı məhsulları mövsümi xarakterli amillərin təsiri ilə qarşıdakı bir neçə ayda da ərzaq inflyasiyasına azaldıcı təsir edəcək. Proqnozlar cari ilin sonuna inflyasiyanın hədəf daxilində (4±2 faiz) qalacağını göstərir.

**Xarici şərait**

Xarici sektorda müsbət meyillər davam etməkdədir. Cari ilin 4 ayında ixrac (malların ixracı) 25,4 faiz, o cümlədən qeyri-neft ixracı 19,9 faiz artıb, ticarət balansında 2,5 milyard dollarlıq müsbət saldo yaranıb.

Profisitli tədiyə balansı şəraitində ölkənin strateji valyuta ehtiyatları ilin əvvəli ilə müqayisədə 6,2 faiz artaraq 47,5 milyard dollara çatıb.

Beynəlxalq konyunktur Azərbaycan üçün əlverişli olaraq qalır. Neftin qiyməti ilin əvvəlindən 24 faiz yüksəlib.

Dünya ərzaq qiymətləri aprel ayında ötən ilin eyni dövrünə nəzərən 2,2 faiz aşağı düşüb (Mənbə: BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı).

**İqtisadi aktivlik**

İqtisadi artım pozitiv dinamikasını saxlayır. Bu ilin 4 ayında ötən ilin eyni dövrünə nəzərən real iqtisadi artım 2,1 faiz təşkil edib. Qeyri-neft sektorunda artım 2,1 faiz olub və əsasən ticari sektordan qaynaqlanıb. Real sektorun monitorinqi əsasında hesablanan biznes inam indeksi son ayda qeyri-neft emal və xidmət sektorunda artıb.

İqtisadi artım həm xarici tələb, həm də daxili tələblə dəstəklənir. Yanvar-aprel aylarında ötən ilin müvafiq dövrünə nəzərən pərakəndə əmtəə dövriyyəsinin artım tempi (2,7 faiz) əhali gəlirlərinin artım tempindən (5,5 faiz) geri qalıb. Bu, ev təsərrüfatlarının hələ ki əhəmiyyətli inflyasiya təzyiqi yaratmayan istehlak davranışı nümayiş etdirdiyini göstərir.

**İnflyasiya riskləri**

Qısamüddətli dövrdə inflyasiya üzrə risklər balansı tarazlı qiymətləndirilir. Buraya əlverişli beynəlxalq konyunktur, profisitli tədiyə balansı, tarazlı valyuta bazarı, antiinflyasion xarakterli monetar şərait və mövsümi amillər aiddir.

Ortamüddətli perspektiv üzrə risklər balansı mürəkkəbləşməkdədir. Xarici sektor üzrə başlıca qeyri-müəyyənlik qlobal iqtisadi artım perspektivlərinin pisləşməsi, ticarət müharibələrinin yeni dalğası və geosiyasi gərginlik fonunda neftin qiymət dinamikası ilə bağlıdır. Neftin may ayından başlayan ucuzlaşmasının davamlı xarakter alması iqtisadi gözləntilərə neqativ təsir edə bilər. Digər xarici risk mənbəyi dünya ərzaq bazarlarında bahalaşmanın davam etməsi və potensial inflyasiya idxalıdır. Ticarət tərəfdaşı ölkələrinin maliyyə bazarlarında qeyri-sabitlik riski isə nisbətən azalıb ki, bu da qabaqcıl ölkələrdə monetar siyasətin daha da sərtləşməsi gözləntilərinin azalması ilə izah edilir.

Daxili risk amillərinin reallaşması sosial xarakterli fiskal stimullar və maliyyə sektoru ilə bağlı qərarların istehlak bazarına və monetar sektora təsirinin miqyasından asılı olacaq. Son aylarda müşahidə edilən proseslər bu təsirlərin zaman üzrə yayıldığını göstərir. Qeyd olunan faktorların inflyasiya ötürücülüyü dərəcəsi tam olaraq ilin sonuna formalaşacaq. Mürəkkəbləşməkdə olan xarici fonda fiskal siyasətin mövcud qaydalar çərçivəsində həyata keçirilməsi, fiskal siyasətlə monetar siyasətin vahid çərçivədə sərt əlaqələndirilməsi dayanıqlı makroiqtisadi sabitliyin baza şərti olaraq qalır.

**Monetar şərait**

May ayının yekunu üzrə manatla pul bazası ilin əvvəlinə nəzərən 6,6 faiz artıb ki, bu da inflyasiya hədəfinə nail olmaq baxımından məqbul səviyyədir. Mərkəzi Bankın sterilizasiya əməliyyatları üzrə qalığın azalması fiskal profisit şəraitində pul bazasını hədəf daxilində tənzimləməklə əlaqədardır.

Aşağı kredit aktivliyi şəraitində bank sisteminin likvidlik mövqeyində irihəcmli struktur profisiti qalmaqdadır. Yanvar-aprel aylarında kredit qoyuluşları 0,1 faiz, o cümlədən hüquqi şəxslər üzrə 2,7 faiz azalıb. Kredit aktivliyinin son illərdə də aşağı düşməsi iqtisadi artıma və məcmu təklifin genişlənməsinə neqativ təsir göstərməklə makroiqtisadi və maliyyə sabitliyinə xələl gətirir. Bu fonda cari ildə bankların xarici investisiya aktivliyi diqqəti cəlb edir.

Faiz dəhlizinin parametrləri barədə növbəti qərarlar faktiki inflyasiyanın proqnozla müqayisəsi, inflyasiya gözləntiləri, xarici mühitin dəyişimi və maliyyə bazarlarının buna reaksiyasından asılı olaraq qəbul olunacaq.

Bu qərar iyunun 7-dən qüvvəyə minir. Mərkəzi Bankın idarə heyətinin faiz dəhlizinin parametrləri haqqında növbəti qərarı barədə məlumat cari il iyulun 26-da ictimaiyyətə təqdim ediləcək.






# Gənclik







İstedadlar

**Hər sənətin öz gözəlliyi var. Onları təqdim etmək isə fitrətdən, istedadla zəhmətin vəhdətindən və sənətə vurğunluqdan çox asılıdır. Şairliklə həkimliyi eyniləşdirən aqillər bu sıraya rəssamlığı da əlavə edirlər. Bunların üçü də ruhən əkiz sənətlər hesab edilir. Rəssamları isə digər sənət adamlarından fərqləndirən bir çox məziyyətləridir. Ən əsası odur ki, onlar bəzən gözlə görünməyən obrazları belə cızırlar: təxəyyül, düşüncə, fikir karvanının sarvanı olan rəssamların fırçası şairlərin qələmi ilə eyni mahiyyət daşıyır. Musiqi kimi axı rəsm də duyğuların cilalanmış həm portreti, həm də mənzərəsidir.**



## Sənətinin vurğunu

### Onlar duyğuların cilalanmış həm portreti, həm də mənzərəsidir

Deyirlər ki, sənət yolları dolanbacdır, çoxu sona kimi gedə bilmir. Lakin sənətkar ucalığına sənətə vurğunluqla yüksəlmək mümkündür. Bədii yaradıcılıq yolu ilə irəliləyən Lalə Hüseynova da uşaqlıqdan rənglər dünyasına aludə olub. Atası əməkdar rəssam Məmmədhüseynin çəkdiyi rəsmlərdən sirli bir aləmin boylandığını görüb. Hərdən atasından gizlicə onun fırçası ilə "öz dünyası"nı yaradanda inanmayıblar ki, bu "rəsmlər" onun uşaq təxəyyülünün ifadəsidir.




O illəri arxada qoyan Lalə Məmmədhüseyn qızı Hüseynova 1995-ci il fevral ayının 28-də Neftçala şəhərində anadan olub. Bakıda, Səbail rayonundakı 236 saylı tam orta məktəbi 2012-ci ildə əla qiymətlərlə bitirərək Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının Təsviri sənət fakültəsinə daxil olub və fərqlənmə diplomu ilə bitirib. Təhsil aldığı illərdən bəri Rəssamlıq Akademiyasında, Azərbaycan Rəssamlar İttifaqında, respublikanın müxtəlif bölgələrində və xarici ölkələrdə təşkil edilmiş sərgilərdə rəsmləri nümayiş edilən Lalə Hüseynova müxtəlif müsabiqələrdə də cəlbedici mövzularla iştirak edib və mükafatlandırılıb.

#### İlk uğurun sevinci

Lalə sevindiyi, layiqli yer tutaraq mükafat aldığı tarixi günləri unutmayıb: "2009-2010-2011-ci illərdə Gül bayramı müsabiqələrində asfalt üzərində ən yaxşı gül rəsmi nominasiyası üzrə mükafatlandırılmışam. 9 Noyabr - Azərbaycan Dövlət Bayrağı Günü münasibətilə "Mənim bayrağım" rəsm müsabiqəsində iştirak etmişəm. Bu sıraya bir çox qatıldığım sərgi və müsabiqələr də daxildir: Beynəlxaq Ana Dili Günü, Gənclər Günü və s. 2013-cü ildə Berlindəki Berlin-Bakı Qalereyasında keçirilən Xocalı faciəsinə həsr olunmuş sərgiyə də qatılmışam. Mənim üçün əlamətdar olan günlər çoxdur. Bakı Limanının elan etdiyi yaradıcılıq müsabiqəsinin incəsənət kateqoriyası üzrə birinci yerə layiq görüləndə sevincimin həddi-hüdudu olmayıb..."

Rəssam Lalə Hüseynova əminliklə bildirdi ki, foto sənəti meydana gəlməmişdən rəssamlıq artıq məişətdən cəmiyyətə keçərək insanların xarakterini, təbiətin füsunkarlığını əks etdirirdi. Leonardo Da Vinçi, Mikelancelo, Botçelli, Rembrandt, Rubens... kimi klassiklərin yaratdığı sənət əsərləri yalnız təmsil etdikləri xalqın deyil, dünya mədəniyyətinin nadir inciləri hesab edilir: "Azərbaycan rəssamlıq məktəbi klassiklərinin də bu sənətin zirvəsini kəhkəşana döndərmələri barədə çoxsaylı dəyərli fikirlər var. Dünya incəsənətinə töhfələr vermiş rəssamlarımızın adları da əsərləri kimi uzunömürlüdür. Bəşər mədəniyyətinə rəssamlıq sənəti ilə misilsiz töhfələr vermiş Bəhruz Kəngərli, Səttar Bəhlulzadə, Maral Rəhmanzadə, Mikayıl Abdullayev, Toğrul Nərimanbəyov, Tahir Salahov, Hüseyn Əliyev bu kimi klassiklərin yaratdıqları məktəb bu gün də layiqli davamçılarını hazırlayır".

#### Vizual sənətin inciləri

Lalə klassikləri xatırlayıb özü barədə fikirlərini bölüşərkən səmimi etirafla bildirdi ki, rəssam və bir insan kimi formalaşmasında atasının böyük rolu olub: "O mənə vizual sənətin incilərini, rəssamlıqda peşəkar düşüncə formalarını, incəsənət tarixinin faktorlarını və təhlilini aşılayıb. Uşaqlığımda dediyi sözləri daim xatırlayıram: "Sənət çox zərifdir, çalışmasan, yaratmasan, o səni bağışlamayacaq". Mən də bunu qulaqlarımda sırğa eləmişəm. Ona görə də hər eskizin bədii sənət əsərinə çevrilməsində həmin faktordan istifadəyə böyük önəm vermişəm".

Rəssamın düşüncə tərzini inkişaf etdirən çox hallarda məhz ilham qaynağı olur. Lakin işləmə texnikası da şərt kimi qəbul edilir. Rənglərin palitrada qarışdırılması belə rəssam üçün ilham pərisinə çevrilə bilər. Bu baxır onun sənətə vurğunluq dərəcəsinə. Belə düşünən rəssamlardandır Lalə Hüseynova.

Gəncliyi öz sənət əsərləri ilə layiqincə təmsil edən Lalə xanım 2016-cı ildən Azərbaycan Rəssamlar İttifaqı Gənc Rəssamlar Birliyinin üzvüdür. Uğurlarından biri də 2017-ci ildə Gənclər və İdman Nazirliyinin Gənclər mükafatına layiq görülməsidir. Ötən il də gənc rəssam üçün yaddaqalan hadisələr az olmayıb. Məsələn, "Molla Nəsrəddin"lə bağlı keçirilən sərgi-müsabiqədə III yerə layiq görülüb.

#### "Ruhun zəfəri"nin qalibi

Bu il də Lalə xanım üçün uğurla başlayıb: aprel ayının 3-də Azərbaycan Rəssamlar İttifaqının V.Səmədova adına sərgi salonunda 31 Mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş sərgi-müsabiqə keçirilib. Orada iştirak edən və mükafata layiq görülənlər arasında Azərbaycan Dövlət Rəssamlıq Akademiyası Təsviri sənət fakültəsinin böyük laborantı Lalə Hüseynova da var idi. Həmsöhbətimiz deyir ki, həmin sərgi-müsabiqədə 130 nəfərdən çox peşəkar rəssamın rəngkarlıq, qrafika, heykəltəraşlıq və dekorativ-tətbiqi sənət üzrə əsərləri nümayiş olunub. 10-15 may tarixlərində isə Bakıda keçirilən Cüdo üzrə Qran-pri yarışlarından öncə Azərbaycan Rəssamlar İttifaqının dəstəyi ilə Milli Paralimpiya Komitəsinin "Ruhun zəfəri" mövzusunda elan etdiyi respublika plakat müsabiqəsində III yerin sahibi olub.

Rəssamlıqla yanaşı, Lalə Hüseynovanın digər bir qabiliyyəti də ona karyera qurmasında mühüm vasitəyə çevrilib. Belə ki, respublika üzrə "II mükəmməl pedaqoq-şəxsi inkişaf" layihəsində, həmçinin aprel ayının 20-21-də keçirilən Azərbaycan VI Beynəlxalq Psixologiya konfransında yüksəksəviyyəli iştirakına görə sertifikatlar alıb.

*Məhəmməd NƏRİMANOĞLU,*
*Ağaəli MƏMMƏDOV (foto),*
*"Azərbaycan"*

Gəncliyin sözü

## Cəmiyyətin aparıcı qüvvəsi

### Dövlət gənclər siyasəti onların fəallığını artırmış, hərtərəfli inkişafını stimullaşdırmışdır

**Qloballaşma dövründə milli maraqlara və dəyərlərə əsaslanan, beynəlxalq təcrübəni nəzərə alan Azərbaycan dövlətinin gənclər siyasəti onları ölkədə gedən proseslərdə həm iştirakçı, həm də bəhrələnən sosial qrup kimi qəbul edir.**



Gənclər hər bir cəmiyyətin aparıcı qüvvəsidir. Onlar eyni zamanda cəmiyyətin ən çox enerjili və yeni tendensiyalara açıq üzvləridir. Gənc nəslin bugünkü potensialı xüsusən transformasiya və modernləşmə proseslərinin həyata keçirildiyi müasir cəmiyyətlər üçün mühüm əhəmiyyət kəsb edir.

Gənc nəslə qayğı göstərilməsi, diqqətin artırılması, onlara qoyulan sərmayə, heç şübhəsiz, parlaq gələcəyin təminatıdır. Hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, beynəlxalq aləmdə nüfuzunun artması, intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır. Məhz bu kimi vacib amillər nəzərə alınaraq ölkəmizdə gənclərlə bağlı siyasət elə aparılır ki, respublikamızda yetərincə sağlam, vətənpərvər, yüksək intellektli nəsil formalaşır.

Azərbaycanın inkişafı, dünya dövlətləri sırasında öz layiqli yerini tutması hər bir vətəndaşın, o cümlədən, müxtəlif ölkələrdə yaşayan soydaşlarımızın üzərinə yeni-yeni vəzifələr qoyur. Hər bir azərbaycanlının bu vəzifələrin öhdəsindən layiqincə gəlib-gəlməməsi başqa bir mövzudur. Azərbaycanın aparıcı qüvvəsi olan gənclər bu istiqamətdə daha fəaldırlar. Ölkəmizin inkişafına istiqamətlənən, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət siyasətinin həyata keçirilməsində gənclərə xüsusi yerin ayrılması heç də təsadüfi deyildi.

Hələ 1993-cü ildə ümummilli lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra respublikada həyata keçirilən gənclər siyasəti özündə beş mühüm istiqaməti ehtiva edirdi: milli-mənəvi dəyərlərin qorunmasında gənclərin rolunun artırılması, gənc nəslin tarixi köklərə bağlı olan vətənpərvərlik ruhunda tərbiyəsinin təmin edilməsi; gənclərin elmi və intellektual potensialının artırılması üçün ciddi təhsil və mədəni islahatların həyata keçirilməsi; gənclərin təşkilatlanmasının təmin edilməsi, dövlətin müstəqilliyinin müdafiəsi üçün onların aparıcı qüvvə qismində birləşməsinin gücləndirilməsi; dövlət idarəçiliyində gənclərin rolunun əhəmiyyətli dərəcədə artırılması və onlarda məsuliyyət hissinin formalaşdırılması və nəhayət, gənclərin Azərbaycan dövlətinin beynəlxalq aləmə inteqrasiyası ilə təmin olunan imkanlardan maksimum istifadə etmələri üçün möhkəm əsasın yaradılması.

Bunun nəticəsidir ki, ötən dövr ərzində gənclərlə iş sahəsində bir sıra mühüm nəticələr əldə edilmişdir. Həyatın bütün sahələrində gənclərin fəallığı, təşəbbüskarlığı, irimiqyaslı layihələrin icrasında və idarəetmədə rolu artmış, vətənpərvərlik ruhu və vətəndaşlıq mövqeyi möhkəmlənmiş, könüllülük hərəkatı genişlənmişdir. Bütün bunlar, heç şübhəsiz, gənclərin cəmiyyətdə bir şəxsiyyət kimi formalaşması istiqamətində faydalı və olduqca əhəmiyyətli amillərdir.

"Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi, 2005-2009 və 2011-2015-ci illəri əhatə edən "Azərbaycan gəncliyi" dövlət proqramları, eləcə də "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının uğurla həyata keçirilməsi, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun yaradılması, bilikli, peşəkar, istedadlı gənclərin dəstəklənməsi üçün Prezident mükafatının təsis edilməsi gənclərin hərtərəfli inkişafını stimullaşdırmışdır.

Ümumilikdə dövlət gənclər siyasəti gənclərin hərtərəfli inkişafının təmin olunması, onların ictimai-siyasi fəallığının artırılması üçün siyasi, sosial-iqtisadi, təşkilati-hüquqi şəraitlərin yaradılmasını şərtləndirir. Respublikamızda dövlət gənclər siyasətinin daha səmərəli həyata keçirilməsinə nail olmaq, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək, gənc nəslin sağlamlığını qorumaq, təhsil və məşğulluq məsələlərinə diqqəti artırmaq, müasir informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə, könüllülük hərəkatını inkişaf etdirmək kimi vacib məsələlər dövlətin əsas məqsədlərindəndir.

Bu gün Azərbaycan gəncləri ölkəmizin suverenliyi və ərazi bütövlüyünün keşiyində ayıqsayıq dayanır, peşəkar kadr olmaq üçün müxtəlif biliklərə yiyələnir, Azərbaycan Respublikasının bayrağını yüksəklərə qaldıraraq dünya səviyyəli idman yarışlarında fərqlənirlər.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycan gənci dövlətimizin mənafeyini hər zaman etibarlı şəkildə müdafiə etmək, layiqli vətəndaş kimi formalaşmaq üçün hərtərəfli çalışmalıdır. Hər bir gənc öz həyat yolunu elə seçməli və qurmalıdır ki, müstəqil Azərbaycan Respublikasının inkişafına öz töhfəsini verə bilsin. Təəssüf hissi ilə bildirməliyik ki, antiazərbaycançı şəbəkənin bir qrup üzvü yox, ünsürü bu milli hisslərdən uzaq olduğu üçün ölkəmizi dünyada nəinki ana vətən kimi təqdim etməyi bacarmır, əksinə, düşmən dəyirmanına su tökür. Belələrinin isə Azərbaycan gəncliyinə aidiyyəti yoxdur.

*Elvin TALIŞİNSKİ,*
*"Milli Mənəvi Dəyərlərimizə Dəstək" İctimai Birliyinin sədri,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

Tribuna

## Böyük humanizm nümunəsi



**Bu gün Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində kifayət qədər fəaldır, təşəbbüskar kimi çıxış edir, irimiqyaslı layihələrin icrasına qoşulur, idarəetmədə rolunu artırır, vətənpərvərlik ruhu və vətəndaşlıq mövqeyi möhkəmlənir.**

Gənclər ölkə rəhbərliyinin siyasi, iqtisadi, humanitar, sosial istiqamətlər üzrə həyata keçirdiyi tədbirlərə hər zaman dəstək olurlar. Onlar Azərbaycan reallıqlarının təbliğatçısı kimi fəaliyyətlərini genişləndirir, hər sahədə qazandıqları uğurlarla ölkəmizin tanıdılmasına, üçrəngli bayrağımızın yüksəklərə qaldırılmasına öz töhfələrini verirlər.

Dövlət başçısının biz gənclərə diqqət və qayğısı ilbəil artır. Azərbaycan tarixinə sosial islahatlar ili kimi düşən 2019-cu ilin arxada qalan aylarında da ölkə rəhbəri İlham Əliyev uğurla apardığı gənclər siyasətinə yeni töhfələr verdi. Fevral ayında təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı imzaladığı sərəncamlar tələbə həyatında mühüm müsbət dəyişikliklərə səbəb oldu. Bu sərəncam 600-ə yaxın doktorantı və 110 mindən artıq tələbəni əhatə etdi, dövlət sifarişi və ya ödənişli əsaslarla təhsil almasından asılı olmayaraq göstəriciləri yüksək olan bütün tələbələrə şamil olundu. Sərəncam gənclərə fəaliyyətlərində böyük stimul verdi, yüksək təqaüdü qazanmaq üçün daha çox çalışmağa, daha çox oxumağa sövq etdi, təhsilə, elmə olan marağı daha da artırdı.

Bu günlərdə isə ölkə Prezidenti I və II dərəcə əlilliyi olan şəxslərin, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsil haqqının ödənilməsi ilə əlaqədar sərəncam imzaladı. 2019-2020-ci tədris ilindən etibarən ali təhsil müəssisələrində bakalavriat və magistratura təhsil səviyyələrində ödənişli əsaslarla təhsil alan I və II dərəcə əlilliyi olan şəxslərin, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsil müddəti ərzində xərclər dövlət büdcəsinin vəsaiti hesabına ödəniləcək. Maddi və mənəvi olaraq bu, həmin qəbildən olan insanlara böyük güzəştdir, diqqətdir, humanizm nümunəsidir. Oxumaq istəyən, lakin maddi durumu ancaq sağlamlığı ilə bağlı xərclərinə yetən, maddiyyat ucbatından ödənişli əsaslarla təhsilini davam etdirə bilməyən nə qədər gənclər var...

Bizim sıralarımızda da ödənişli əsaslarla oxuyan, lakin təhsil haqqını ödəməkdə çətinlik çəkən əlil tələbə dostlarımız var. Təbii ki, onların problemini həll etməyə universitetin də bir o qədər maddi imkanı yoxdur. Lakin onlar da tay-tuşlarından, dostlarından kənarda qalmaq istəmir, oxumaq, ali təhsilli mütəxəssis kimi yetişmək istəyirlər. Yeni sərəncam bu gənclərin arzusunu gerçəkləşdirdi. Sözsüz ki, dövlət başçısının bu diqqət və qayğısı onların ürəyindən xəbər verdi, insanları nə qədər sevindirdi, ruhlandırdı. Onlar bir daha hiss etdilər ki, arxalarında güclü dövlət və humanist dövlət başçısı var.

*Məhbubə NAĞIZADƏ,*
*Azərbaycan Memarlıq və İnşaat Universiteti*
*Nəqliyyat fakültəsinin 1-ci kurs tələbəsi*

Yaddaş

## Türkiyənin gənclik və idman bayramı Gəncədə də qeyd edilib



**Gəncədə - Atatürkü anma, Gənclər və İdman Bayramı Günü qeyd edilib. Tədbirdə Türkiyənin Gəncədəki Baş konsulu Zəki Öztürk, Gəncə Şəhər İcra Hakimiyyətinin təmsilçiləri, idman ictimaiyyətinin nümayəndələri və şəhər sakinləri iştirak ediblər.**

Tədbir iştirakçıları Türkiyənin Gəncədəki Baş Konsulluğunun binası önündən Xan bağına yürüş ediblər.

Parkda günün mahiyyətini simvolizə edən çinar ağacı əkilib. Tədbir iki dövlətin himnlərinin səsləndirilməsi ilə başlayıb.

Türkiyənin Gəncədəki Baş konsulu Zəki Öztürk bu əlamətdar günün əhəmiyyətindən danışıb.

Qeyd edilib ki, 19 may 1919-cu ildə Mustafa Kamal Atatürk "Bandırma" (İstanbuldan hərəkət edən) gəmisi ilə Samsuna gəlib. Antanta dövlətlərinin işğalına qarşı olan Qurtuluş müharibəsinin başlanğıcı olaraq qəbul edilən bu günü Atatürk gənclərə hədiyyə edib. Həmçinin 19 may 1919-cu il Türkiyə tarixində Qurtuluş savaşının başlanğıcı hesab edilir.

Çıxış edənlər iki dövlət arasında tarixi əlaqələrdən, qardaşlıq münasibətlərindən söz açıb, bu əlaqələrin günü-gündən möhkəmləndiyini vurğulayıblar.

Tədbirdə Gəncə Dövlət Filarmoniyasının solistləri və Gəncə Dövlət Dram Teatrının aktyorları çıxış ediblər. Şəhərdə fəaliyyət göstərən uşaq-gənclər idman-şahmat məktəblərinin idmançılarının nümunəvi çıxışları izlənilib.

Özünüməşğulluq

## Həyatına rahatlıq gəldi

### Gənc İsmayıllı sakini işindən də razıdır, qazancından da...

**Hazırda Azərbaycanın sosial siyasət konsepsiyasının əsas istiqamətlərindən biri yeni iş yerlərinin açılması, əhalinin məşğulluğunun təmin olunması, vətəndaşların ünvanlı sosial yardımdan asılılığının aradan qaldırılmasıdır. Heç şübhəsiz ki, müvafiq istiqamətdə bir çox addımlar atılır, dövlət başçısı səviyyəsində fərman və sərəncamlar imzalanır.**



Həmin sənədlərdən biri 7 aprel 2016-cı ildə Prezident İlham Əliyev tərəfindən "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" imzaladığı sərəncamdır. Sözügedən sərəncam dövlət məşğulluq siyasətində keyfiyyətcə yeni bir mərhələ açmaqla özünüməşğulluq fəaliyyəti ilə işsiz və işaxtaran şəxslərin ailə bizneslərini qurmalarına, əmək potensiallarının reallaşdırılması yolu ilə gəlirlərini artırmalarına, həmçinin kiçik və orta sahibkarlığın inkişafına xidmət edir.

Sərəncamın verilməsindən ötən dövr ərzində özünüməşğulluq proqramı xeyli genişlənib. Proqram 2016-2017-ci illərdə təxminən 1000 nəfər ətrafında həyata keçirilirdisə, 2018-ci ildə bu fərq kəskin dəyişməklə 7800 vətəndaşın müraciətinin qəbul olunması ilə nəticələnib. Onlardan 7200-ü müxtəlif kurslardan, proqramlardan və təlimlərdən keçərək öz biznes-planlarını müdafiə ediblər. İndiyədək 5500 nəfərdən çox insan aktivlərini alıb.

Qeyd olunan 7200 nəfərdən 1000-i əlilliyi olan şəxslər, 1000-dən çoxu məcburi köçkünlərdir. Proqram çərçivəsində olan gənclər 1200-1300 nəfərdir, xanımlar isə 1000 nəfərə yaxındır. Ümumilikdə proqramdan gözləntilər çoxdur və cari ildə özünüməşğulluq proqramının 7-8 min ailəni əhatə edəcəyi proqnozlaşdırılır. Bu da 6-7 min mikrotəsərrüfatın yaranması deməkdir.

Özünüməşğulluq proqramına müraciətlərə nəzər yetirmiş olsaq görərik ki, bunun təqribən 85 faizi heyvandarlıqla bağlıdır. Qalanı istehsalat və xidmət sahələridir. Aralarında şirniyyat sexi, gözəllik salonu, internet kafe açmaq, iaşə xidmətləri göstərmək, müxtəlif sənətkarlıq nümunələri, xalçaçılıq dəzgahları istəyənlər də var.

Respublikamızın hər yerində olduğu kimi, İsmayıllı rayonunda da özünüməşğulluq proqramından bəhrələnən insanlar var. Bunlardan biri şəhərin Günəşli qəsəbəsinin sakini Şəfaqət Teymurovdur. Dediyinə görə, atası fəhlə olduğu üçün ailənin maddi vəziyyətində çətinliklər yaşanıb. Ona görə də erkən yaşlarından ailəsinə maddi dəstək vermək üçün işləməyə qərar verib.

İsmayıllı şəhərinin Ə.Ələkbərzadə küçəsində yerləşən "Forsaj" avtoservisində yer icarəyə götürərək təkər təmiri fəaliyyəti ilə məşğul olmağa başlayıb. Şəfaqət Teymurov 2000-ci ildən bu fəaliyyətlə məşğuldur. Dediyinə görə, fəaliyyətinin ilk dövrlərində zəruri avadanlıqlar olmadığından çox işi əllə icra edib. Olan avadanlıqların köhnəliyi də ortalığa sifarişçilərin istəyinə uyğun keyfiyyətli xidmət qoymağı imkansız edib. Qazancı da gündəlik 10 manatı keçməyib. Təbii ki, bu da maddi təminatı çətinləşdirib.

Evlənməsi və iki övladının olması xərcləri daha da artırıb. 2018-ci ildə İsmayıllı Rayon Məşğulluq Mərkəzinə müraciət edib. Sənədləri, ailə vəziyyəti, iş yeri araşdırıldıqdan sonra o, kurslara cəlb olunub. Bir aylıq kurslardan sonra 4000 manat dəyərində biznes-plan hazırlayaraq təqdim edib. Nəticədə lazımi aktivlərlə təmin olunub.

O, təkər, balans aparatları, kompressor və ağırlıqqaldırıcı ilə təmin olunub. Ondan sonra Şəfaqət işinə daha böyük sevgi ilə bağlanıb. Burada müasir avadanlıqların tətbiqinə başlanması müştərilərin də sayını artırıb. Deyir ki, əvvəllər müraciətlər çox olsa belə aparatların olmaması səbəbindən müştərilər məcbur olub başqa servislərə üz tutmalı olurdular. İndiki halda vəziyyət xeyli dəyişib. Qazancı onu qane edir. Bu da ailəsinin dolanışığının xeyli yaxşılaşmasına əhəmiyyətli təsir göstərib.

Şəfaqət dövlət proqramının onun kimi çoxlu sayda gəncin həyatını dəyişdiyini deyir və ölkə rəhbərliyinə ailəsi adından minnətdarlıq edir.

Qeyd edək ki, Azərbaycanda işsizlik və yoxsulluğa qarşı təsirli fəaliyyət mexanizmləri, uğurlu sosial proqramlar, xüsusilə Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən icra olunan özünüməşğulluq proqramı beynəlxalq səviyyədə yüksək qiymətləndirilir. Dünyanın mötəbər təşkilatlarından biri olan Beynəlxalq Sosial Təminat Assosiasiyasının özünüməşğulluq proqramını "Yaxşı Təcrübə" xüsusi mükafatına layiq görməsi də bunu sübut edir.

*Əli SƏLİMOV,*
*"Azərbaycan"*



# TURİZM



● Gəzməli, görməli yerlərimiz

# Ölkəmiz dünya turizm həvəskarlarının xidmətindədir

**Yəqin ki, çoxlarınız müşahidə etmisiniz. Digər fəsillərə nisbətən yay aylarında ölkəmizə gələn turistlərin say artımında ciddi fərq olur. Bu da təbiidir. Axı hansı peşənin sahibi olmasından asılı olmayaraq ilin on bir ayını istehsalatda və ya hər hansı işdə çalışan insanlar dincəlmək, səyahət etmək, səhhəti ilə bağlı az-çox müalicə almaq, habelə digər işlər üçün yay aylarına üstünlük verirlər.**



Bunun digər səbəbi də ölkəmizdəki sabitlik, əmin-amanlıq, mötəbər tədbirlərə evsahibliyi etməsi, habelə turizm həvəskarları üçün yerlərdə dünya standartlarına uyğun şəraitin yaradılmasıdır. Bunların sırasına ölkəmizin qədim şəhərlərindən tutmuş bölgələrdəki ucqar kəndlərədək uzanan rahat yolları, səliqəli hotelləri, çeşidli təamları, milli adət-ənənələrin gözoxşarlığını, yerli əhalinin tolerantlığı və mehribanlığını, gəzməli və görməli yerlərin unudulmazlığını əlavə edəndə, əlbəttə ki, Azərbaycana bir gələn bir də gəlmək istəyər. Adi bir misal. Ölkəmizin şimal qapısı olan Qusarın dəniz səviyyəsindən 1300 metr yüksəklikdə yerləşən Ləzə kəndinə son illər 70 mindən çox turist səfər edib. Ekspertlərin söyləmələrinə görə, bu kənd ən çox xarici qonağın gəldiyi turizm məkanıdır.

Turistləri bu kəndə cəlb edən həm də həmin kəndin qeyri-adi gözəlliyindən olan 10-dan çox dağ şəlaləsinin axar-baxarlığıdır. Qafqaz sıra dağlarının şimal-şərqində, dəniz səviyyəsindən 4.242 metr hündürlükdə, Şahdağ yüksəkliyinin ətəyində yerləşən kənddə cəmi 170 nəfərə yaxın əhali yaşayır. Burada nə az, nə çox - cəmi 28 ev var. Sakinlər əkinçilik və maldarlıqla yanaşı, ev turizmi ilə də məşğuldur. Yerli və xarici qonaqlar müəyyən məbləğ ödəyərək kənddə gecələyir, milli mətbəx təamlarından dadırlar. Ləzəyə gəlmək istəyən turistlər üçün kənd sakinləri bələdçilər təklif edir. Dağlıq ərazilərdə çadır quraraq istirahət etmək istəyənlər Ləzədə bu arzularını reallaşdıra bilirlər.

Ölkəmizin tamamilə başqa bir səmtinə, Naxçıvan Muxtar Respublikasına cari ilin birinci rübündə 100 minə yaxın turist gəlib. Bu da 2018-ci ilin müvafiq dövründəki göstəricidən çoxdur.

Əgər bura Şəki-Qax-Zaqatala, Lənkəran-Astara-Lerik, Gəncə-Hacıkənd-Gədəbəy və digər turizm yerlərinə gedənlərin, habelə Xəzər dənizinin Şıxov çimərliyindən tutmuş Yalama-Nabran ərazilərinədək olan yerlərdə istirahətdə və müalicədə olanları da əlavə etsək, nə qədər artım olduğunu görərik. Turistlərin təhlükəsizliyinin yüksək səviyyədə təmin olunması, istirahətinin və səyahətinin səmərəli keçməsi üçün Azərbaycan dövləti, habelə yerli icra orqanları səmərəli tədbirlər görürlər. Belə ki, cari ildən ölkəmizə gələn turistlərin və yerli vətəndaşların məlumatlandırılması məqsədilə ölkənin 9 məntəqəsində - Naxçıvan Muxtar Respublikası və paytaxt Bakı ilə yanaşı, Xaçmaz, Quba, Şamaxı, Zaqatala rayonlarında, Gəncə, Şəki və Lənkəran şəhərlərində Turizm İnformasiya Mərkəzi (TİM) fəaliyyətə başlayıb.

Xüsusi saytlar vasitəsilə dünyanın ucqar guşəsindən insanlar bölgənin istənilən yerində özlərinə əvvəlcədən yer və müvafiq turizm xidmətləri sifariş verə bilərlər. Bu məqsədlə Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə turizm informasiya mərkəzlərinin saytları yenidən hazırlanmış və müxtəlif dillərdə turistlərin xidmətinə verilmişdir. Bir ay bundan öncə daha dörd mərkəzin saytı www.baku.azerbaijan.travel, www.ganja.travel, www.lankaran.travel və www.shamakhi.travel istifadəyə verilib. Portallarda yerli turistlərin məlumatlandırılmaları üçün hər cür informasiya yer alıb. Yaxın vaxtlarda portalların ingilis və rus dili versiyası da tam istifadədə olacaq. Bundan başqa, Bakıya səyahət edənlər üçün rəsmi şəhər kartı olan "Bakı Kart" ("BakuCard") hazırlanıb.

"BakuCard" yeni və innovativ məhsul olaraq kart sahiblərinə Bakı şəhərində ictimai nəqliyyatdan və hava limanından şəhərə və ya əksinə transfer xidmətini həyata keçirən "Baku City Aero Express" avtobuslarından ödənişsiz istifadə imkanı verir. Turistlər kartı əldə etməklə Bakı şəhəri üzrə turistik yerlərə gəzintilər həyata keçirən "Baku City Tour" avtobuslarına biletləri 50 faiz endirimlə əldə edə biləcəklər.

Kart vasitəsilə 20-dən çox muzey və istirahət mərkəzlərinə pulsuz və ya endirimli giriş, 200-dən çox pərakəndə satış mağazasında və ticarət mərkəzində, müxtəlif restoran və kafelərdə endirimlər və ödənişsiz məhsullardan faydalanmaq mümkündür. Etibarlılıq müddətinə görə 24 saatlıq, 72 saatlıq və 1 həftəlik olmaqla 3 növü olan kartların qiymətləri müvafiq olaraq 24, 45 və 70 manat təşkil edir. Kartların satışı Heydər Əliyev adına Beynəlxalq Hava Limanı, turizm informasiya mərkəzləri, müxtəlif hotellər, turizm agentlikləri və köşklərlə yanaşı, onlayn olaraq www.bakucard.az saytı vasitəsilə həyata keçirilir.

Bütün bunlar turizmin Azərbaycanda sürətli inkişafına təkan verməklə yanaşı ölkənin iqtisadi inkişafında böyük perspektivlər açmasına da real zəmin yaradır. Bu məsələyə kompleks şəkildə yanaşan Prezident İlham Əliyevin fərman və sərəncamlarına əsasən, ölkəmizdə turizm sənayesi həm daxili, həm də xarici qonaqları qəbul etmək üçün ildən-ilə inkişaf edir. Azərbaycanın gözəl iqlimi, yay aylarında Xəzərsahili istirahət və müalicə ocaqları, sanatoriya və kurortları, bir-birindən maraqlı yerli tarixi abidələri nəinki Bakıda, bütün bölgələrdə dünya turizm həvəskarlarının xidmətindədir.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

● Tariximiz, dəyərlərimiz

**Füsunkar gözəlliyi, əsrarəngiz təbiəti ilə yerli və xarici turistləri heyran edən Gədəbəydə respublikamızda ilk dəfə olaraq milli-mədəni dəyərlərimizi, tariximizi və çoxsaylı ənənələrimizi özündə əks etdirən Milli Yaylaq Festivalı keçiriləcək. İyul-avqust aylarında baş tutacaq festivalla əlaqədar rayonun Miskinli yaylağının ərazisində orijinal üslubda "Yaylaq Yurdu" adlı etnoqəsəbənin yaradılması üçün geniş hazırlıq işlərinə başlanılmışdır.**




# Gədəbəy milli yaylaq festivalına hazırlaşır

Qeyd edək ki, etnoqəsəbənin ərazisində yaşayış yurdları (alaçıqlar) ilə yanaşı, cıdır meydanı, yaylaq bazarı, sənətkarlıq guşəsi, "Dədə Qorqud" ocağı, yaylaq yatağı (kənd təsərrüfatı heyvanları üçün yerlər), pəhləvan meydanı, "Aşıq Ələsgər ocağı", yaylaq süfrəsi və digər sahələr yaradılacaq.

Milli Yaylaq Festivalı turistlərin ən çox gəldikləri iyul-avqust aylarında fəaliyyətə başlayacaq. Avqust ayının ilk yarısında etnoqəsəbənin ərazisində 3 gün ərzində genişmiqyaslı el şənliyi (etnoqrafik-mədəni-idman tədbirləri) təşkil ediləcək. Milli Yaylaq Festivalı şərti 3 hissədən ibarət olacaq. Bunlar mədəni-etnoqrafik hissə, milli yaylaq oyunları və ekoetnoturizmdir. Mədəni-etnoqrafik hissədə aşıqların deyişməsi, milli rəqslər, xalq mahnıları, tamaşalar, əski xalq oyunları (dirədöymə, çilingağac, əzəldəyməz, müçük, aşıq-aşıq, mollamindi) təşkil ediləcək, yaylaq mətbəx nümunələri bişiriləcək, qoçların, qurdbasarların (çoban itlərinin) və yerli yorğa atların sərgi-müsabiqəsi keçiriləcək, müalicəvi dağ bitkilərinin satış-yarmarkası da təşkil ediləcək.

Festival müddətində ölkəmizdə tolerantlıq və multikulturalizmin əyani nümayişi olaraq Azərbaycanda yaşayan müxtəlif etnik qrupların (avarların, malakanların, talışların, yəhudilərin, ləzgilərin və b.) nümayəndələrinin mədəni proqramlarına və nümunəvi çıxışlarına yer veriləcək.

Milli yaylaq oyunları adlı hissədə yaylaq oyunları adı altında qədim tarixə malik yorğa at yarışları ilə yanaşı milli güləş, çoban güləşi keçiriləcək, atlar üzərində çıxışlar, atüstü milli oyunlar təqdim olunacaq.

Festivalda qonaqlar və turistlər arasında masa (ağac və kəndirçəkmə), nərd yarışı, "çuvalqaçdı" kimi kütləvi oyun-yarışmalar təşkil ediləcək. Festivalın ekoetnoturizm hissəsində turistlər üçün xüsusi etnoqəsəbədə köhnə ənənəvi üslubda düzəldilmiş dəyələrdə qalmaq imkanı yaradılacaqdır. Bununla da turistlər "Yaylaqda bir gün" adlı hissədə şərti olaraq XVIII əsrin ənənəvi yaylağına səyahət edəcəklər. Etnoqrafik ekoqəsəbədə bir gün yaşamaq, inək və ya qoyun (keçi) otarmaq, onları sağmaq, ot biçmək (taya düzəltmək), atlara qulluq etmək, nehrə çalxalamaq, tətbiqi sənətlə məşğul olmaq, milli mətbəx nümunələri bişirmək və qidalanmaq, dəyədə gecələmək və s. şəraitin yaradılması insanlara zövq verəcək.

Bununla yanaşı, festival iştirakçıları üçün bölgənin məşhur yerlərinə - Koroğlu qalasına, Mahrasa məbədinə, Qız qalasına və digər tarixi məkanlara atla gəzintilər, eləcə də "Alman izləri" adlı ekskursiyalar təşkil ediləcəkdir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

● Təbii sərvətlərimiz





# Duzdağ ideal müalicə məkanıdır

**İnsan sağlamlığının qorunması mühüm bəşəri vəzifələrdəndir. Bu baxımdan hələ qədim dövrlərdən təbii ehtiyatlardan istifadə etməklə sanatoriya və kurort müalicəsi ən yaxşı səmərə verən üsullardan biri olub. Müasir dövrdə isə geniş yayılmış turizm növlərindən olan müalicə-sağlamlıq turizminin sürətlə inkişaf edərək dünya üzrə təqribən 14 faizlik bir həcmə malik olması onun mühüm əhəmiyyət kəsb etdiyini göstərir.**

Dünyada çox sayda insanın əziyyət çəkdiyi astma xəstəliyinin speleoterapiya, yəni duz mağarasında təbii üsullarla müalicəsi müasir tibbin mühüm nailiyyətlərindəndir. Planetdə insan sayının artması və bir çox yerlərdə hava-iqlim şəraitinin ağırlaşması ilə astma xəstəliyinin də yayılması bu müalicə növünə olan marağı artırır. Belə ki, baş ofisi Yeni Zelandiyada yerləşən və dünyanın 135 ölkəsində təmsilçiliyi olan Qlobal Astma Şəbəkəsinin 2018-ci il üçün hazırdadığı illik hesabatda ümumilikdə dünya üzrə təqribən 339 milyon insanın astmadan əziyyət çəkdiyi və hər gün 1000-ə yaxın insanın isə bu xəstəlikdən dünyasını dəyişdiyi bildirilir. Ona görə də ölkəmizin təbii sərvətləri arasında mühüm yer tutan Naxçıvandakı daşduz mağaraları əsasında astma xəstəliyinin müalicəsi həm tibbi-bioloji, həm də humanitar əhəmiyyətinə görə olduqca diqqətçəkəndir.

Təbii üsullarla müalicə baxımından Naxçıvan çox zəngin sərvətlərə malikdir. Muxtar respublikanın yerləşdiyi ərazinin quru və təmiz havası, Darıdağ, Sirab, Vayxır kimi müalicəvi mineral suları, Batabat, Qanlıgöl, Gəmiqaya kimi dağlıq ərazilərdəki saf ekoloji şəraiti təkcə Cənubi Qafqazda deyil, bütün Avropa üzrə seçilən çox geniş çeşiddə dərman bitkiləri arealı və şübhəsiz, Duzdağın möcüzəvi duz müalicəsi Naxçıvana şəfa məqsədilə gələn insanların əsas niyyətlərindəndir. Buna görə də hər il 4 minə yaxın pasiyentin müalicə olunduğu Duzdağ Fizioterapiya Mərkəzi son illər dünya miqyasında tanınmağa başlayıb.

Duzdağ - əhalisi təqribən 100 min nəfər olan Naxçıvan şəhərindən 11 kilometr şimal-qərbdə yerləşir. Burada milyon illər əvvəl təbii şəraitdə formalaşmış nəhəng xörək duzu yataqları mövcuddur. Ehtiyatları 90 milyon tona yaxın hesablanan bu duzun iki minillik çıxarılma tarixi var.

Naxçıvan Şərqlə Qərb arasında qədim İpək yolu üzərində yerləşdiyindən daş duzun buradan dəvə karvanları ilə min kilometrlərlə uzaqlara daşındığı söylənilir. Yerli əhali arasında duzla, onun müalicəvi möcüzələri ilə bağlı çoxlu maraqlı hekayə söylənilir. Duzun Naxçıvanın 5 minillik şəhər mədəniyyətinin formalaşmasında mühüm rolu olduğu faktı aşkardır. Bunu ərazidə aparılan arxeoloji qazıntılar zamanı əldə olunmuş və duz çıxarılmasında istifadə edilən maddi-mədəniyyət nümunələri təsdiqləyir. 1950-ci illərdən başlayaraq Duzdağda duzun sənaye üsulu ilə geniş həcmdə çıxarılmasına başlanmış, beləliklə, Yer səthindən təxminən 100 metr aşağıda çoxlu sayda insanın sığışa biləcəyi nəhəng duz mağaraları yaranmışdır. Dünyada duz mağaralarında bronxial-astma və ağciyər xəstəliklərindən əziyyət çəkən insanların müalicəsi üsulu - speleoterapiya kəşf olunandan sonra Duzdağ həm də müalicə məkanı kimi tanınmışdır.

Duzdağda 1979-cu ildə 50 çarpayısı olan xəstəxana fəaliyyətə başlayıb. 1980-ci ildə çarpayıların sayı 100-dək artırılıb. 1980-ci illərin axırlarında SSRİ-nin süqut etməsi və Naxçıvanın blokadaya alınması ilə yaranan ağır sosial-iqtisadi vəziyyət Duzdağ xəstəxanasının işinə də mənfi təsir göstərib. Lakin tikintisi 2008-ci ildə başa çatdırılan Duzdağ Fizioterapiya Mərkəzi hazırda 450-yə yaxın yataq sayı, pasiyentləri və burada çalışan tibbi personalı ilə diqqəti cəlb edir, eləcə də Duzdağa tanışlıq məqsədilə gələn turistlər üçün çox gözəl şəraitə malikdir.

Qeyd edək ki, hazırda speleoterapiya üsulu ilə dünyanın bir çox yerlərində müalicə tətbiq olunur. Lakin Naxçıvan Duzdağının coğrafi yerləşmə mövqeyi, buradakı duz ehtiyatlarının həcmi və tətbiq olunan müalicənin keyfiyyəti fərqlidir. Ümumiyyətlə, Duzdağın dəniz səviyyəsindən yüksəkliyi, şaxtalardakı mövcud hava şəraiti, temperatur, rütubət, atmosfer təzyiqi və oksigenin faizlə miqdarı, bakterioloji tərkibi burada astma və allergiyadan əziyyət çəkən xəstələrin müalicəsinin ideal nəticələr verməsinə şərait yaradır. Belə ki, insanların dərinliyə enmədən birbaşa 300 metrədək uzanan duz şaxtasına heç bir fobiya olmadan daxil olması, il ərzində buradakı havanın 18-20 dərəcədə sabit temperaturu, zəhərli qazların son dərəcə minimum səviyyəsi duz müalicəsinin effektini artıran əsas amillərdəndir. Şübhəsiz, son dövrlər yaradılan müasir infrastruktur, yaxınlıqdakı beşulduzlu Duzdağ hoteli, Naxçıvan şəhərindən müntəzəm olaraq işləyən sərinişin avtobus xidmətləri, şaxtanın girəcəyində təklif olunan iaşə və hədiyyəlik əşya satışı və ən əsası, tibbi personalın pasiyentlərə qayğısı istər müalicəyə gələnlər, istərsə də onları müşaiyət edənlər üçün hər cür imkanlar yaradır. Mərkəzin xidmətlərindən istifadə edən Bakı və Sumqayıt şəhərləri, habelə Quba, Qusar, Qəbələ, Şəmkir, Goranboy, Bərdə, Yevlax, habelə Lənkəran və Masallı vətəndaşları ilə yanaşı Türkiyə, Ukrayna, İran, Rusiya, Tacikistan, Gürcüstan, Qazaxıstan, Almaniya, Britaniya, Hollandiya, avstriyalı turistlər də Duzdağın möcüzəvi müalicə potensialından razılıq edirlər. Uşaqlar üçün 12, böyüklər üçün isə 18 günədək davam edən müalicə kursları pasiyentlərin dərman istifadə etmədən sağalmasına səbəb olur ki, bu da onların ən şirin nemətə - cansağlığına qovuşması deməkdir.

Qeyd edək ki, Duzdağ Fizioterapiya Mərkəzinin yerləşdiyi duz şaxtaları eyni zamanda görməli yer kimi də həvəskar turistlərin və ekskursiyaçı tələbələrin ən çox gəzdikləri yerlərdəndir. Hər il tanışlıq və ekskursiya məqsədilə Naxçıvana gələn çox sayda turist Duzdağa da baş çəkərək bu nadir təbiət və insan əli möcüzəsinə tamaşa edib dərin təəssüratlarla geri qayıdır.

Bu il Duzdağda mağara müalicəsinə başlanılmasının 40 ili tamam olur. Bu baxımdan Duzdağ Fizioterapiya Mərkəzinin 40 illik yubileyinin keçirilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 16 may 2019-cu il tarixli sərəncamı dünya əhəmiyyətli bu uinkal müalicə mərkəzinə verilən yüksək qiymətdir. Mərkəz gələcəkdə də insanların sağlamlığının bərpasında rolunu artıracaq.

*Əli CABBAROV,*
*"Naxçıvan" Universitetinin dosenti, Beynəlxalq Turizm Akademiyasının üzvü*

● Xoş istirahət

# Sumqayıt çimərliyində yay mövsümünə nümunəvi hazırlıq aparılır





**Sumqayıtın bütün göstəriciləri öncədən düşünülmüş layihələrə uyğunlaşdırılıb. Burada inkişaf təkcə bir istiqamət üzrə köklənmir, sənaye, müxtəlif profilli istehsal müəssisələri, sosial həyat, infrastruktur və digər sahələrdə sürətli tərəqqi paralel şəkildə bir-birini tamamlayır. Elə buna görə də Sumqayıt Bakıdan sonra Cənubi Qafqazın ikinci sənaye mərkəzinə çevrilib.**

Xəzərin sahilində - ləpədöyəndə yerləşən Sumqayıt çimərliyi ilə də fərqlənir. Bura təkcə ölkə vətəndaşlarının deyil, turistlərin də istirahət yeridir.

Çoxumuz yayın başlamasını səbirsizliklə gözləyirik. Çünki yayda dənizə getməmək, Xəzərin duzlu sularında çimməmək heç ağlabatan deyil, özü də sahil boyu uzanıb gedən Sumqayıtda...

Əvvəllər Sumqayıt çimərliyi baxımsız vəziyyətdə idi. Buranı hətta ev heyvanları da özlərinə "istirahət" yeri seçmişdi. Sahilin çirkli olması hamını Bakı çimərliklərinə aparırdı.

Son bir neçə ildə ölkə başçısının imzaladığı sərəncamla çimərlik turizminin inkişafına dair tədbirlər planının təsdiq edilməsi yenicə başlayan yay mövsümündə aktuallığı ilə fərqlənir. Burada çadır və kənd turizminə də geniş yer ayrılıb. Qeyri-neft sektorunun inkişafı istiqamətində atılan addımlar Sumqayıtda artıq öz bəhrəsini verməkdədir. Həmin istiqamətdə reallaşdırılan ən mühüm layihələrdən biri də Sumqayıt Dənizkənarı bulvarın və şəhər çimərliyinin yaradılmasıdır. Belə bir bulvarın salınması ölkəmizdə sosial layihələrin ardıcıl və məqsədyönlü şəkildə həyata keçirildiyini nümayiş etdirir.

Əslində Sumqayıtın çimərlik turizminin əvvəlini elə bulvardan başlamaq lazımdır. Bulvarı fərqləndirən cəhətlərdən biri onun çimərliyə birbaşa çıxışının olmasıdır. Burada yaradılan şərait bir daha sübut edir ki, dövlət vətəndaşların istirahətlərini mənalı təşkil etmək, asudə vaxtlarını səmərəli keçirmək üçün bütün zəruri addımları atır. Bu cür layihələrin icrası bir daha sübut edir ki, şəhərin abadlaşdırılması istiqamətində görülən işlər davamlıdır, onlar yüksək keyfiyyətlə və vaxtında yerinə yetirilir. Müasir üslubda, orijinal dizaynda yaradılan həmin istirahət məkanı Sumqayıtın görməli yerlərinə daha bir ünvanın da əlavə edilməsi deməkdir. Şəhərə gələn turistlər bulvarda Bayraq meydanı və Bayraq muzeyi ilə tanış olurlar. Burada fəaliyyət göstərən kafe-çay evi, istirahət obyektləri, attraksionlar, kinoteatr, tennis kortu, futbol meydançaları, yay musiqi səhnəsi, ticarət və uşaqlar üçün əyləncə mərkəzləri qarşıdan gələn yay mövsümünə tam hazırdır.

Sumqayıtda turizmin inkişafına təkan verən cəhətlərdən biri də şəhərin sənaye potensialının yenilənməsidir. Bu gün Sumqayıt tullantısız sənaye mərkəzi kimi fəaliyyət göstərir. Bütün bunlar çimərlik turizminin inkişafına imkan verən amillərdir. Sumqayıtda dənizin sahilində səhər gün çıxanda ətrafa yayılan yod qoxusunun müalicəvi əhəmiyyətini də əlavə etmək lazımdır. Bu mövsümdən belə bir müalicə forması fəaliyyət göstərən istirahət mərkəzlərinin girəcəklərində olan reklam tablolarında qeyd ediləcəkdir.

İkinci bir cəhət isə şəhərin dəniz səviyyəsindən yuxarıda yerləşməsidir. Bunun nəticəsi olaraq Sumqayıtda daim külək əsir. İsti yay günlərində belə əsən külək insanlara sərinlik gətirir.

Sumqayıtda çimərlik turizminin inkişafını şərtləndirən cəhətlərdən biri də onun təbii mövqeyi ilə bağlıdır. Azərbaycana böyük turist axını Rusiya, Belarus və Türkiyə respublikalarındandır. Sumqayıt bu ölkələrin tranzit yolunun üstündədir. Sərhədi keçən turist bir neçə saatdan sonra Sumqayıta çatır. Yeni infrastruktur və müasir yaşayış binaları ilə əhatələnən bu şəhərin Corat kəndi var. Turistlərin diqqətini bu kənddə cəlb edən çox şey var. Yaşı yüzillərlə ölçülən məscid, tarixi qala divarları, qədim hamamlar, xan evi və digər tikililər hamının marağına səbəb olur. Təkcə ölkəmizdə deyil, keçmiş sovetlər məkanında məşhur olan Corat qutabı, neçə-neçə dadlı yeməyi ilə tanınan bu kənddə turistlərin istirahəti üçün bütün şərait yaradılmışdır.

Yay mövsümündə Corat kəndi ətrafında və dənizə yaxın ərazilərdə çadır turizmini formalaşdırmaq nəzərdə tutulub. İsti qum üzərində dincəldikdən sonra orada qurulan çadırda səhərin al şəfəqlərini izləməyin özgə ləzzəti var.

Sumqayıt çimərliyinin yaxınlığında yerləşən istirahət mərkəzlərinin ətrafı təmizlənib, təmir işləri başa çatıb. Sarıqaya istiqamətində bağlararası yol lazımi hala gətirilib.

Yay mövsümü ərzində çimərlik zonalarında xilasetmə işlərinin yüksək səviyyədə qurulması və tibbi yardımın göstərilməsi üçün müvafiq qaydada aidiyyəti təşkilatlara tapşırıqlar verilib. Dəniz sahilində günvurmadan əziyyət çəkən vətəndaşa elə yerindəcə xidmət göstəriləcəkdir.

Sumqayıt çimərliyinin üstün cəhətlərindən biri onun kənd turizmi ilə birləşməsidir. Xaricilər çox vaxt hoteldənsə şəxsi evlərdə qalmağa üstünlük verirlər. Bir addımlıqda yerləşən Novxanı və Corat kəndlərində evlərini turistlərə verən yüzlərlə insan var.

Əhalinin çimərliyə gediş-gəlişini təşkil etmək üçün bu ərazilərə xüsusi marşrutların ayrılması da nəzərdə tutulub. Çimərlikdə yerləşən bütün iaşə obyektləri mövsümə nümunəvi hazırlaşır. Yay aylarında fəaliyyətini gücləndirən mərkəzlərdə çalışanların da sayı artır. Personal xüsusi xidmət geyimləri ilə təmin edilir.

Bu yay mövsümündə Sumqayıtın turist potensialının ötən ilə nisbətdə artacağı gözlənilir.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

# "Samur" gömrük-sərhəd buraxılış məntəqəsinə və Samur çayı üzərində avtomobil körpüsünün tikintisinə baxış keçirilib

İyunun 7-də Azərbaycan Respublikasının Rusiya Federasiyası ilə dövlət sərhədində yerləşən "Samur" gömrük-sərhəd buraxılış məntəqəsinə və Samur çayı üzərində avtomobil körpüsünün tikintisinə baxış keçirilib.



Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev, Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev və Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri Saleh Məmmədov ərazidəki mövcud vəziyyətlə yerində tanış olublar.

Əvvəlcə Prezident İlham Əliyevin dövlət sərhədindən buraxılış məntəqələrində sərhəd və gömrük rəsmiləşdirilməsinin sadələşdirilməsi, eyni zamanda, ölkəmizin turizm imkanlarının genişləndirilməsi, biznes mühitinin daha da yaxşılaşdırılması, sahibkarlığın inkişaf etdirilməsi və müvafiq dövlət qurumları tərəfindən Azərbaycan vətəndaşlarının mənafelərinin qorunması barədə verdiyi tapşırıqların icra vəziyyəti və bu istiqamətdə görülmüş tədbirlərin səmərəliliyi öyrənilib.

"Samur" gömrük-sərhəd buraxılış məntəqəsindəki mövcud vəziyyət, Dövlət Gömrük Komitəsi və Dövlət Sərhəd Xidmətinin yerli bölmələrinin qarşılıqlı fəaliyyətinin tənzimlənməsi məsələləri müzakirə edilib və vəzifəli şəxslərin məruzələri dinlənilib.

Son zamanlar sərnişin və yükdaşımaların həcminin əhəmiyyətli dərəcədə artması, həmçinin Azərbaycandan Rusiyaya kənd təsərrüfatı məhsullarının daşınması baxımından sərhəd təhlükəsizliyinin təminatı tədbirlərinin gücləndirilməsi ilə yanaşı, sərhədkeçmə məsələlərinin daha da təkmilləşdirilməsi, o cümlədən dövlət sərhədindən keçən şəxslər, nəqliyyat vasitələri və yüklər üzərində gömrük və sərhəd nəzarətinin sürətləndirilməsi və daha səmərəli təşkilinə dair tapşırıq və tövsiyələr verilib.

Sonra Azərbaycan Respublikasının Rusiya Federasiyası ilə dövlət sərhədində yerləşən "Samur" gömrük-sərhəd buraxılış məntəqəsində aparılan yenidənqurma işlərinə və Samur çayı üzərində avtomobil körpüsünün tikintisinə baxış keçirilib.

Tikintidə mövcud vəziyyət və görüləcək işlər barədə məlumat verilib. Bildirilib ki, yeni körpünün inşasının yaxın vaxtlarda başa çatdırılması planlaşdırılır. Körpünün uzunluğu 325,3 metr, eni 17,3 metrdir. Körpü üç zolaqdan ibarət olacaq.

Yeni körpünün açılması nəqliyyat vasitələrinin sərhəd keçidlərindən daha tez buraxılmasını təmin edəcək ki, bu da gələcəkdə iki ölkə arasında daşımaların həcminin artmasına xidmət göstərəcək. Bu körpü həm də "Şimal-Cənub Beynəlxalq nəqliyyat dəhlizi"nin səmərəliliyinin artırılması istiqamətində atılan addımlardır.

***"Azərbaycan"***

# Fransadan erməni faşizminə zərbə

## Serji-Pontuaz inzibati məhkəməsi Fransanın Arnuvill şəhəri ilə Dağlıq Qarabağdakı qondarma rejim arasında imzalanan "xartiya"nı ləğv etməklə Ermənistanın işğalı legitimləşdirmək cəhdinin qarşısını aldı

*Əvvəli 1-ci səh.*

Bu kimi səfərlər, Fransanın ATƏT-in Minsk qrupunun həmsədri qismində çıxış etdiyi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə sülh yolu ilə həlli prosesinə yardım etmir.

Fransa merlərinin səfərləri əvvəlcədən məqsədyönlü şəkildə planlaşdırılaraq həyata keçirilmişdi. Belə ki, həmin merləri Azərbaycana qarşı qərəzli mövqeyi ilə seçilən Fransa Milli Məclisinin sabiq deputatı Fransua Poşbluanın, habelə Fransadakı qondarma rejim ilə "dostluq dərnəyi"nin üzvlərinin müşayiət etmələri göstərirdi ki, məqsəd Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində yaratdığı separatçı rejimi düşünülmüş formada dəstəkləməkdir. Bu mənada Fransa bələdiyyə başçılarının səfərləri həm də işğal və azərbaycanlıların etnik təmizlənməsi əsasında qurulan status-kvonun təşviqini həyata keçirmək baxımından birbaşa təxribat idi.

Səfərlərdə iştirak edənlərin işğaldan əvvəl azərbaycanlıların yaşadığı şəhər və rayonların qondarma yerli hakimiyyətləri ilə "dostluq xartiyaları"nı imzalamaları isə o demək idi ki, Fransanın bələdiyyə başçıları Azərbaycan torpaqlarının işğalını, azərbaycanlıların əzəli, tarixi torpaqlarından etnik təmizlənmələrini qəbul edir, faktiki etnik təmizləmələri dəstəkləyirlər. Bu, özlüyündə bir cinayət idi və həmin "bəyannamə"lər heç bir hüquqi qüvvə daşımırdı.

Bu da Azərbaycanda ciddi narazılıq yaratmışdı. Çünki bu hadisə iki dövlət arasındakı münasibətlərin ruhuna və eləcə də ATƏT-in Minsk qrupunun həmsədri kimi Fransanın statusuna zidd idi. Fransa Azərbaycanın Avropada sıx siyasi, iqtisadi və mədəni əlaqələri olan ölkələrdən biridir. Rəsmi Paris də Cənubi Qafqazın lider ölkəsi kimi Azərbaycanla münasibətlərin inkişafına əhəmiyyət verir. İndiyədək Azərbaycan və Fransa prezidentlərinin qarşılıqlı səfərləri siyasi anlaşmanın yüksək səviyyədə olmasının göstəricisi olmaqla yanaşı, bütün sahələrdə əlaqələrin daha da dərinləşməsinə xidmət edib.

Fransız şirkətləri Azərbaycanın enerji layihələrində yaxından iştirak edir. "Suez", "Total", "Thales" kimi şirkətlər respublikamızda dövlət sifarişi ilə həyata keçirilən çoxsaylı layihələrin mühüm tərəfdaşlarıdır. Bu layihələrin dəyəri təqribən 2 milyard avroya yaxındır.

Heydər Əliyev Fondu Fransada çox möhtəşəm layihələr reallaşdırır. Bərpa işləri aparır, sərgilər təşkil edir, müxtəlif tədbirlər həyata keçirir. Artıq Fransanın mədəni həyatında Heydər Əliyev Fondunun özünəməxsus yeri və rolu var.

